Bu bir xalq qəzetidi
ƏDALƏT

## Prezident sərəncam imzaladı



**Prezident İlham Əliyev Bakı şəhərinin Sabunçu rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən Bakı şəhəri Sabunçu rayonunun Bakıxanov, Bilgəh və Ramana qəsəbələri ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 7,4 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

## MÜDAFİƏ NAZİRLİYİNİN GÜLMƏLİ AÇIQLAMASI



*Deməli, Gəncə hospitalının psixiatriya bölməsində yatan bir MAXE hospitalı tərk edib və çıxıb gedib Ağdərəyə. Orda da bir evdən ya su istəyibmiş, ya nə istəyibmişsə xəbər eləyiblər olmayan respublikanın təhlükəsizlik xidmətinin əməkdaşları gəlib qolunu qandallayıb həbs ediblər və haqqında iki cinayət işi qaldırıblar. Biri "Artsaxın sərhədlərini" pozduğuna görə, ikincisi də "casusluğa" görə. Erməniləri başa düşdük, onlar hələ də Dağlıq Qarabağı Artsax adı ilə ayrıca bir dövlət kimi tanıyırlar. Heç demə sərhədlərini də müəyyənləşdiriblər.*

*Bizim Müdafiə Nazirliyi də bir açıqlama yayıb ki, həmin MAXE ilə əlaqədar cinayət işi qaldırılıb.*

*Bu cinayət işi hansı maddələrlə tövsif olunur, deyilmir. Xəstəxanadan qaçmağına görəmi? Azərbaycan Respublikasının Cinayət Məcəlləsində belə bir maddə yoxdur. Azərbaycanın hansısa bir bölgəsindən başqa bir bölgəsinə getdiyinə görəmi? Cinayət Məcəlləsində belə bir maddə də yoxdur.*

*Düzdür, işğaldan azad olunmuş ərazilərə icazəsiz getməyə görə vətəndaşlar məsuliyyət daşıyır, bu da cinayət məsuliyyəti deyil, inzibati cəza alırlar, uzağı 15 sutka.*

*İndi hörmətli Müdafiə Nazirliyi,özünüz dediyiniz kimi, bu adam əsəb xəstəsiymiş və müalicə alırmış. İndi əsəbləri tab gətirməyib, ya nədən belə bir məsuliyyətsiz addım atıb.*

*İndi əsgərimizi xilas etmək üçün yollar axtarmaqdan, Rusiyanın ordakı sülhməramlılarından həmin əsgəri geri qaytarmağı tələb etməkdənsə belə bir gülünc açıqlama verirsiniz.*

*Allah işinizi avand eləsin.*

## BİZƏ SƏHİYYƏ NAZİRİ LAZIMDIRMI?!

**5 aydır səhiyyə naziri Oqtay Şirəliyev vəzifədən götürülüb və kreslosu boşdur. Bu kreslonun doluluğu bilinmədiyi kimi, boşluğu da heç bilinmir. Arada dövlət büdcəmiz təxminən bir 20 min manat irəli düşüb, yəni nazir maaşını alan yoxdu.**

Deyirəm, varlığı ilə yoxluğu bilinmədiyinə görə bəlkə bizə heç səhiyyə naziri lazım deyil? Və ümumiyyətlə, heç Səhiyyə Nazirliyi lazım deyil?

Deməli, səhiyyəmizlə üç təşkilat məşğuldur: TƏBİB, Tibbi Sığorta və Səhiyyə Nazirliyi. Böyük-böyük nazirlikləri və komitələri bir nazirlikdə birləşdirdiyimiz halda, bir nazirliyi üç yerə bölmüşük.

O nazirliyi ki səhiyyəni elə bir günə qoyublar ki, həm özləri, həm də yüksək vəzifəli dövlət məmurları bu nazirliyə etibar etmir, xaricə müalicəyə gedir.

Bir dəfə Oqtay Şirəliyevə hansısa qəzet hansısa bir məsələ ilə bağlı zəng etmişdi, cavab vermişdi ki, Almaniyada müalicədəyəm, gələndə danışarıq.

Deməli, Təcili Yardımı vermişdilər TƏBİB-ə. Sonra Səhiyyə Nazirliyi maya qoydu, aldılar verdilər Səhiyyə Nazirliyinə. Maraqlıdır, elə deyilmi?

Bu gün pandemiya ilə mübarizə aparan əsas təşkilat TƏBİB-dir. Hamı TƏBİB-dən umur, küsür. Səhiyyə Nazirliyi barədə bir kəlmə də yazan yoxdur, çünki olmayan şey barədə nə yazsınlar?

Bəlkə nazirliyin bütün səlahiyyətləri TƏBİB-ə verilsin, görün onda dövlət büdcəsi nə qədər xeyir görəcək.

Ölkədə islahatlar gedir, dedik bir təklifi də biz verək.

**Onu da qeyd edim ki, TƏBİB-ə heç bir işim düşməyib, inşallah da düşməz. Bunu harasa yozmayın.**

## ƏBÜLFƏS QARAYEV İSTİNTAQA CƏLB OLUNACAQMI?

*Mədəniyyət nazirinin müavini, daha dəqiq desək, bizdə hansısa bir nazirliyin müavini olmur, hansısa bir nazirin müavini olur. Yəni kəsəsi, Əbülfəs Qarayevin müavini Rafiq Bayramova külli miqdarda dövlət əmlakını mənimsədiyinə görə, 8 il iş verdilər.*



*Sovet hökumətində külli miqdarda dövlət əmlakını mənimsəmə 10 min manatdan yuxarı sayılırdı, bu da Cinayət Məcəlləsndə 86.1 maddəsiylə tövsif olunurdu, cəzası da 15 ilədək və yaxud güllələnmə idi.*

*Allaha şükür ki, Sovet hökuməti dağılıb, dövlətin 100 milyon, hətta 1 milyard pulunu ye, uzaqbaşı hakimlərlə bir az mehriban olarsan 8-10, day özünü öldürsə 14 il iş alarsan. Sonra da "yarısroka" çıxa bilərsən.*

*İndi Rafiq Bayramov deyir ki, mən ayağıma yazılan pulları nazir Əbülfəs Qarayevə vermişəm və "pataloku" 10-15 faiz "otkat" almışam, onun da xeyli hissəsini işçilərimə mükafat paylamışam. Yəni həmin pulun 85-90 faizi gedib Əbülfəs Qarayevə. İndi bizim "samıy qumannıy sud v mire" olan məhkəmələrimiz və ya bu işi aparan müstəntiqlərimiz belə bir suala cavab verə bilərlərmi:*

*- Əbülfəs Qarayevə cinayət işi qaldırılacaqmı?*

*İnandırıcı deyil, çünki Əbülfəs Qarayev də o pulu tək yeməyib. O da kimlərinsə üzünə dura bilər və zibili çıxar.*

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 77 (5909) 28 avqust 2021-ci il
Qiyməti 30 qəpik

## ƏSLİNDƏ "AZAL" QİYMƏTLƏRİ BİR AZ DA QALDIRMALIDIR



**"AZAL"a şər atırdılar ki, guya dünyanın ən bahalı aviabiletini hörmətli Cahangir Əsgərov satır. Heç demə belə deyilmiş. Cahangir Əsgərov da, "AZAL" da ABŞ-ın aviaşirkətlərinin yanında həm toya, həm də nişana getməliymiş.**

ABŞ-ın aviaşirkətləri Kabildən qaçmaq istəyən hər bir əfqana bileti 6500 dollara verir. Özü də nə yemək verir təyyarədə, nə də kreslo.

Kənd camaatı bilir (bunu "Mimino"da da görmüsünüz), kəndə kino gələndə iki kubikin üstünə taxta qoyulurdu və camaat orda otururdu. İndi ABŞ-ın təyyarələri də əfqanları belə daşıyır, bunu videolarda görmüsünüz.

"AZAL" heç olmasa kreslo verir, yemək verir, su istəyəndə su verir, çay istəyəndə çay verir.

**"AZAL"ın yerində olsam , biletləri bir az da qaldıraram. Təyyarədə uçmaq istəmirsən ya piyada get, ya da maşının varsa maşınla.**

# İlham Əliyev və Mehriban Əliyeva "Gənclik" parkının açılışını etdilər



Bax:səh-2

## ABŞ-da yeni Azərbaycan diaspor təşkilatı yaradılıb

**ABŞ-da yeni Azərbaycan diaspor təşkilatı yaradılıb. Diasporla İş üzrə Dövlət Komitəsindən Trend-ə verilən məlumata görə, Kamran Qarayev və Əsmər Hüseynovanın birgə təşəbbüsü ilə ABŞ-ın Yuta Ştatında fəaliyyət göstərən "Yuta-Azərbaycan Dostluq Təşkilatı" rəsmi qeydiyyatdan keçib.**

AZƏRBAYCAN RESPUBLİKASININ DİASPORLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ
www.diaspor.gov.az

Bu barədə Yuta Ticarət Nazirliyinin korporasiya və kommersiya kodeksi şöbəsinin direktoru Li Veylettin Yuta-Azərbaycan Dostluq Təşkilatına ünvanladığı məktubda bildirilib ki, təşkilat Yuta Ştatının qanunvericiliyinə müvafiq olaraq hüquqi şəxs qismində qeydə alınıb.

Qeyd edək ki, yeni təşkilatın rəhbəri Amerika Azərbaycanlıları Koordinasiya Şurasının üzvü, Yuta-Azərbaycan İcmasının nümayəndəsi Əsmər Hüseynovadır.

## İŞTƏ BU, QARABAĞ ATLARININ AYAQ SƏSLƏRİ!



**Qurban Qurbanov, nə deyim ey sənə? Əmdiyin süd, atanın çörəyi halalındı. Özü də tək sənin yox, həm də bütün futbolçuların. Tanrı haqqı, hələ Almeydayla Ozobiç bizdən oynasaydı hesab lap 7:0 olardı.**

Təbrik və uğurlar. Sən Azərbaycan futboluna Əhməd Ələsgərovdan sonra adını yazdıran ikinci adamsan. Və bəlkə də birincisən!

Sən dediyimə görə bağışla. Dostlar, bir-birinə "siz" deyə müraciət etməzlər.

Sən ağdamlı deyilsən, bunu bilirəm. Hansı rayondan olduğunu bilmirəm və məni maraqlandırmır da. Ağdamlıların belə bir sözü var, bütün yaxşı oğlanlar ağdamlıdırlar. Sən də yaxşı oğlan olduğuna görə elə ağdamlısan.

Aqil ABBAS
aqilabbas@rambler.ru



## CIDIR DÜZÜ İLƏ BAĞLI YAZIMIN DAVAMI NİYƏ GECİKİR?

***Cıdır düzü ilə bağlı yazdığım yazının davamını bu günə söz vermişdim, amma obyektiv səbəblərdən qaldı növbəti həftəyə. Ona görə də darıxmayın, daha mükəmməl və ciddi bir yazı oxuyacaqsınız. Həmin yazını da Azərbaycanın vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın ad gününə hədiyyə edəcəm.***

## Koronavirusa yoluxanların sayı 4 mini keçdi

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 4 203 yeni yoluxma faktı qeydə alınıb, 1 724 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 35 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 409 745 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 354 864 nəfər müalicə olunaraq sağalıb, 5 469 nəfər vəfat edib, aktiv xəstə sayı 49 412 nəfərdir.

**Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 16 136, ötən müddət ərzində isə ümumilikdə 4 395 646 test aparılıb.**

## GƏNCLİYİMİZ VƏ İDMANIMIZ BAŞSIZ QALIB

*Rəhmətlik Azad Rəhimovu çox sevərdim. Dostluğumuz yox idi, amma isti münasibətlərimiz vardı, həqiqətən çox təvazökar və vətənpərvər bir oğlan idi, yeri behişt olsun.*

*Amma çox qəribədir ki, hökumətimiz bu günədək onu əvəz edə biləcək kimisə tapa bilmir.*

*Və beləliklə həm gəncliyimiz, həm də idmanımız başsız qalıb. Daha dəqiq desək, yetim qalıb.*

*Yaşım çox olmasaydı, öz namizədliyimi verərdim.*

## "NEFTÇİ"NİN MƏĞLUB OLMASININ ƏN CİDDİ SƏBƏBİ



**Sevimli komandamız, flaqmanımız, çempionumuz "Neftçi" əvvəl Çempionlar Liqasında başladı, sonra orda uduzub Avroliqaya düşdü, orda da uduzdu Konfrans liqasına düşdü və orda da "Makkabi"yə biabırcasına məğlub olub qayıtdı gəldi Bakının istisinə.**

İndi baxıram hamı ağzına gələni yazır. Dostlar, "Neftçi" bizim flaqmanımızdır, ürəyimiz onunla döyünür. Hətta 1966-cı ildə bürünc medal alıb...

Mən Parisdə əsirlikdə olanda...

... "Neftçi" Azərbaycanın ən güclü komandasıdır. Komandanın Ronaldodan da güclü Mezakoli kimi oyunçusu var, başqalarını demirəm. Komandanın Qvardiola kimi baş məşqçisi olan Samir Abbasov kimi baş məşqçisi var.

Sadəcə olaraq, "Neftçi"ni "Makkabi"yə hakimlər uduzdurdu. Əgər həmin oyunun hakimi "Zirə" ilə "Neftçi"nin oyununa hakimlik edən Kamal Umudlu olsaydı hesab ən azı 4:0 bizim xeyirimizə olacaqdı. Həmin oyunda uduzmağımızın səbəbi "Neftçi"nin Kamal Umudlu özüylə aparmamasıdır.

İradə TUNCAY
iradetuncay@rambler.ru

## İnteryerdə portret



**Əslində portret mürəkkəb janrlardan biridir. Həm populyar, həm də peşəkarlıq tələb edən. Əvvəllər yalnız saraylarda çox istifadə olunan, sonralar daha demokratikləşən, hamıya yaxın ola biləcək bir janr. Amma nəzərə alsaq ki, hər kəsin tanımadığı bir sima nə qədər maraq doğura bilər ki? Deməli, obraz elə seçilir ki, onu hamı həyatının bir hissəsi kimi qəbul edir. Bu da əksər hallarda saraylarda yaşayan, rəğbət və ya nifrət qazanan kimsə ola bilər. Sənətin müxtəlif növləri - ədəbiyyat da, təsviri sənət də məhz belə məşhur obrazlara müraciət edib. Xatırlasaq üzü Renessansdan bu tərəfə nə qədər usta müəlliflərin əsərləri var bu janrda.**

Bax: səh.2

## GÜNÜN LƏTİFƏSİ

Hidayət Elvüsal Vəli Xramçaylıya:

**- Vəli, birdən yüz min manat tapsan neyniyərsən?**

Vəli:

**- neyniyəjəm qağa, tez aparıb borclarımı verərəm.**

Hidayət müəllim:

**- Bəs qalanın nağayrassan?**

Vəli:

**- Qalanında Allah kərimdi, yavaş-yavaş verərəm dana.**





## İlham Əliyev və Mehriban Əliyeva "Gənclik" parkının açılışını etdilər



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Xətai rayonu ərazisində yeni yaradılan "Gənclik" parkının açılışında iştirak ediblər.**

Prezidentin köməkçisi Anar Ələkbərov burada yaradılan şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Bir zamanlar baxımsız ərazi olan bu yerin indi həmin görkəmindən əsər əlamət qalmayıb. Paytaxtın Xətai rayonunda yerləşən ərazi yenidən qurularaq Azərbaycanın meşə tipli füsunkar parklarından birinə çevrilib.

Hələ 2019-cu il noyabrın 11-də "Gənclik" parkı yeni salınarkən Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin "Təbiət naminə birləş, Həyat naminə birləş!" layihəsi çərçivəsində ağacəkmə aksiyasında iştirak edən dövlətimizin başçısı parkın abadlaşdırılması, təbii mənzərəsinin qorunub saxlanılması, burada əyləncə və idmanla məşğul olmaq üçün şəraitin yaradılması ilə yanaşı, iaşə obyektlərinin qurulması, insanların asudə vaxtlarının səmərəli təşkili məqsədilə zəruri infrastrukturun qurulmasına dair tapşırıqlar vermişdi.

Üzərindən qısa zaman keçməsinə baxmayaraq, tapşırıqlar tam şəkildə icra olunub və nəticədə yeni istirahət mərkəzi paytaxtın ən gözəl məkanlarından birinə çevrilib.

Parkda şəhər sakinlərinin və qonaqların istirahəti üçün müxtəlif infrastruktur yaradılıb. Buraya üz tutanlar həm yay, həm də qış aylarında paytaxt Bakının, o cümlədən Xəzər dənizinin əsrarəngiz mənzərəsini də seyr edə bilərlər.

Gənclik parkı 43 hektar ərazini əhatə edir. Burada 300 minədək ağac əkilib, yaşıllıqlar salınıb. Bir sözlə, sakinlər və qonaqlar parkda asudə vaxtlarını səmərəli keçirə biləcəklər.

Yeni istirahət məkanında həm uşaqlar, həm də böyüklər üçün idman və əyləncə sahələri yaradılıb, attraksion quraşdırılıb. Həmçinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən fiziki məhdudiyyətli şəxslər üçün idman və əyləncə sahəsi yaradılıb.

"Gənclik parkı"nın tərtibatı zamanı hər bir detal xüsusi zövqlə hazırlanıb. Burada təqdim olunan "Ürəklər" kompozisiyası paytaxtımıza, təbiətimizə, insanlarımıza olan sevgini tərənnüm edir.

Burada bağlı və açıq futbol meydançaları inşa olunub. Parkda ziyarətçilər üçün piknik məntəqələri də var. Qaçış üçün cığırlar, eləcə də velosiped yolları parkın idmansevərlərin də ən çox üz tutduqları məkana çevriləcəyindən xəbər verir.

Park ərazisinin genişliyi nəzərə alınaraq istirahət edən şəxslərin rahatlığı üçün müvafiq məlumatlandırıcı və istiqamətləndirici lövhələr quraşdırılıb. Ərazinin ən görməli yerlərindən biri də parkda yaradılan göldür.

Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində həyata keçirilən layihələrə birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da xüsusi diqqət yetirir. Fond ölkəmizdə yeni yaşıllıqların salınması və mövcud yaşıllıq sahələrinin qorunması üzrə layihələr icra edir. Bu sahədə Fondun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə ekoloji durumun daha da yaxşılaşdırılması, yeni yaşıllıqların salınması məqsədilə icra olunan layihələrin də mühüm rolu var.

Beləliklə, "Gənclik" parkı paytaxtda aparılan abadlıq-quruculuq işlərinə mühüm töhfə verməklə ölkənin sosial-ekoloji hədəflərinin reallaşdırılmasının davamlı xarakter aldığını bir daha təsdiqləyir.

## İlham Əliyev: Ermənistanı müstəqil ölkə adlandırmaq tamamilə əsassızdır

**Ermənistanı müstəqil ölkə adlandırmaq tamamilə əsassızdır.**

Bu barədə Prezident İlham Əliyev şəhid ailələri və Qarabağ qaziləri ilə görüşündə deyib.

Dövlət başçısı bildirib:

"Bu gün Ermənistan artıq açıq etiraf edir ki, öz təhlükəsizliyini özü təmin edə bilmir, öz sərhədlərini özü qoruya bilmir, öz hesabına yaşaya bilmir. Belə olan halda müstəqillikdən söhbət gedə bilməz. Ermənistanı müstəqil ölkə adlandırmaq tamamilə əsassızdır. Çünki müstəqil ölkəyə xas olan əlamətlərin mütləq əksəriyyəti Ermənistan dövlətində yoxdur. Bunun da səbəbi onların işğalçılıq siyasətidir.

Əgər vaxtında mənim sözlərimə əməl edib torpaqlarımızdan çıxsaydılar, belə bir rəzil vəziyyətə düşməzdilər. Nəticədə yenə də mənim sözlərimə əməl etməli oldular. Mən deyirdim ki, bizim torpağımızdan rədd olmalısınız. Rədd oldular. Nəticədə mən deyən oldu, amma vaxt itirdilər. Bu gün Ermənistan nə gündədir, hər kəs bunu görür.

Əlbəttə, acı məğlubiyyətin şokunu onlar hələ uzun illər yaşayacaqlar. Biz isə bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq, qürurla yaşayacağıq. Öz gələcəyimizi özümüz quracağıq, azad edilmiş torpaqları bərpa edəcəyik. Şəhidlərimizin xatirəsini daim qəlbimizdə yaşadacağıq".

## *Abutalıb Səmədov:* "Neynəyək ki, ATƏT-in həmsədrləri gönü qalın davranış nümayiş etdirirlər..."

**"BMT ilə bizim fəal qarşılıqlı əlaqəmiz Ermənistanın təcavüzü nəticəsində başlamışdır və 1993-cü ildə Təhlükəsizlik Şurasının məşhur qətnamələri qəbul olunmuşdur. Bu, çox müsbət addım idi, erməni təcavüzünə toxunularaq bizə dəstəyin çox ümidverici bir jesti idi. Bizim beynəlxalq səviyyədə tanınan ərazilərimizdən erməni qoşunlarının dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələbi Təhlükəsizlik Şurasının çox mühüm siyasi bir jesti idi. Lakin, əfsuslar olsun ki, bu qətnamələr icra olunmamışdır və yəqin sizin də bildiyiniz kimi, Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizminin olmaması məsələsini mən şəxsən dəfələrlə qaldırmışam. Bəzi hallarda qətnamələr qısa müddət ərzində icra olunur, lakin bizə gəldikdə onlar beynəlxalq iştirakçılar tərəfindən ümumiyyətlə icra olunmamışdır. Xüsusilə bizi narahat edən və Azərbaycan cəmiyyətinin anlamaqda çətinlik çəkdiyi məsələ o idi ki, bu qətnamələri qəbul edənlər, Təhlükəsizlik Şurasının daimi üzvü olan beş ölkədən üçü ATƏT-in Minsk qrupuna həmsədr olan və hələ də həmsədrlik edən ölkələrdir. Onlar özləri bu qətnamələri qəbul etmişdir. Bu qətnamələrin həyata keçirilməsinə imkan yaratmaq üçün onların mandatı var idi. Lakin, əfsuslar olsun ki, 28 il ərzində Minsk qrupu çox imkanları əldən verib".**

Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi Vladanka Andreyeva ilə görüşdə deyib.

Prezident İlham Əliyevin sitəm etdiyi dövlətlərdən biri Rusiya 10 noyabr razılaşmasının qarantı kimi müqaviləyə imza atmış Rusiyadır. Ona görə də ATƏT-in Minsk qrupuna həmsədrlik edən dövlətlər Prezident İlham Əliyevin bu birmənalı fikrinə reaksiya verəcəklərmi?..

"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən il dekabrın 12-də ATƏT-



i n
Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, ABŞ-dan olan həmsədri Endrü Şoferi, Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul edəndə də onların üzünə bu sitəmi etdi". Bu sözləri "Adalet.az"-a açıqlamasında Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov sualımızı cavablandırırkən dedi.

Onun sözlərinə görə Prezident İlham Əliyev həmin görüşdə Minsk qrupu münaqişənin həllində heç bir rol oynamamasından təəssüfləndiyini də dilə gətirib:

"Halbuki bunu etmək üçün Minsk qrupu 28 il ərzində müvafiq mandata sahib idi. Cənab İlham Əliyev dövlət başçısı seçiləndən ötən illər ərzində birbaşa ATƏT-in Minsk qrupunun təmsilçiliyi ilə baş tutan görüşlərdə dəfələrlə iştirak edib. Ona görə də bü ün həqiqətləri onların üzünə dedi. Amma neynəyək ki, ATƏT-in həmsədrləri gönü qalın davranış nümayiş etdirirlər.

Dəfələrlə cənab Prezident öz narazılığını, bu qurumun həmsədrlərinə, həmsədr ölkələrin rəhbərlərinə çatdırıb. Amma yenə də, ATƏT-in Minsk Qrupunun həmsədrləri bəyanat verdilər ki, məlum element və substantiv prinsiplər əsasında davam etdirilməsini istəyirik. Ona görə də, sizin suala cavab olaraq onu demək istəyirəm ki, ATƏT-in Minsk qrupuna rəhbərlik edən ölkələr heç bir reaksiya verməyəcəklər"

**İLTİFAT**

## *Natiq Cəfərli:* "Bu qanun bilə-bilə insanları hökumətdən narazı salmaq üçün hazırlanıb"

**"Əlilliyin qruplara görə təsnifatlaşdırılması, SSRİ-dən qalma qayda idi. Azərbaycan müstəqilik əldə edəndən sonra dünyanın aparıcı ölkələrindəki qaydaları öyrənib onun əsasında mükəmməl qanunvericilik aktları qəbul etmək mümkün idi".**

Bu sözləri "Adalet.az"-a açıqlamasında REAL Partiyasının funksioneri, iqtisadçı-ekspert Natiq Cəfərli dedi. O, bildirdi ki, əlilliyin qruplara görə müəyyən edilməsinin faizlə əvəz olunması məsələnin adını dəyişdirmiş oldu, mahiyyəti elə əvvəlki kimi qaldı.

"Bu da problemin köklü surətdə həll olunması barədə deyilənlərin əksini göstərir. Əlilliyin təyin edilməsi yenə də əvvəlki kimi həkimlərin verdiyi qərarlara əsaslandığı üçün, yenə də insan faktorundan asılı olacaq. Buna görə də, əvvəlki neqativ halları təkrar ediləcək. Korrupsiya, rüşvət halları



yenə də əvvəllər olduğu kimi baş alıb gedəcək. Neqativ hallara yol verənləri həbs etməklə hökümət bunun qarşısını ala bilməyəcək".

Ekspert bu məsələnin həlli barədə danışarkən qeyd etdi ki, səhiyyəsi normal inkişaf edən ölkələrdə doğulandan başlayaraq həyatdan köçənə qədər vətəndaş haqqında bütün məlumatlar dəqiqliklə işlənir.

"Sonradan həmin məlumatlar əsasında hazırlanmış kompüter proqramı həmin sağlamlığı məhdud, yaxud işləmək qabiliyyəti az olan insanın əlillik dərəcəsini hesablayır. Ona görə də, mən ciddi dəyişikliyin baş verəcəyinə inanmıram, əksinə sanki bu qanun bilə-bilə insanları hökumətdən narazı salmaq üçün hazırlanıb",- deyə N.Cəfərli insanları narazı salan məqamlara da toxdundu:

"Bizim hökümət yeni qaydaları hazırlayanda xarici ölkələrin təcrübəsindən istifadə edir. Amma həmin ölkələrdəki insanların aldığı məbləği unudurlar.

İnsanların əlilik dərəcəsini müəyyən etmək üçün 5 ildən bir tibbi baxışlardan keçmə məcburiyyəti də əlil insanları haqlı olaraq narazı salan məqamlardandır. Deyək ki, adam əlini, yaxud qolunu itirib, 5 ildən sonra nə baş verir, yenidən əli, yaxud ayağı əmələ gəlir? Bunları hər dəfə incitməyin nə mənası var?"

Qeyd edək ki, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanuna edilmiş dəyişikliklər əlilliyin müəyyən edilməsi sahəsində ilk dəfə olaraq yeni konseptual yanaşmanı, əlilliyin qiymətləndirilməsinin ənənəvi 3 dərəcə əsasında deyil, daha geniş spektrdə olmaqla yeni meyarlarla, orqanizmin funksiyalarının itirilməsi faizi əsasında həyata keçirilməsini nəzərdə tutur. Belə ki, yeni qanunda I dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə, "II dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə və "III dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilib.

**İltifat**

### *ABŞ İŞİD-ə qarşı əməliyyata hazırlaşır*



**Hücumların bədəlini terror təşkilatları ödəyəcək.**

**Bunu ABŞ Prezidenti Co Bayden deyib.**

**"Hücumu həyata keçirənləri bağışlamayacağıq, unutmayacağıq, buraxmayacağıq və bədəlini ödəyəcəklər. Terrorçular bizi qorxuda bilməyəcəklər. Təxliyələr davam edəcək. Hücum edənlərin yerini müəyyən etmişik. Komandirlərimə İŞİD-in əsas aktivlərinə, rəhbərliyinə və obyektlərinə zərbə endirmək üçün əməliyyat planları hazırlamalarını söylədim. İstədiyimiz yerdə güc və dəqiqliklə cavab verəcəyik".**

**Qeyd edək ki, İŞİD-in 26 avqust Əfqanıstanın paytaxtı Kabildə ard-arda törətdiyi terror nəticəsində 100-dən çox insan ölüb. Ölənlərdən 13-ü ABŞ əsgəridir.**

**MEHRİBAN**

## *Yeganə Hacıyeva:* "Anti-terror əməliyyatları qaçılmazdır"

**"Bu gün həqiqətən ortalıqda bir reallıq var ki, Ermənistan tərəf, Rusiya qarant ölkə olaraq 10 noyabr razılaşmasının altına imza atsa da, həmin müqavilədəki öhdəlikləri yerinə yetirilmir. Bu razılaşmanın ən vacib bəndlərindən biri odur ki, rus sülhməramlıları erməni silahlılarının dərhal bölgədən çıxarılmasını təmin etməli idi. Lakin bu müqavilənin bağlanmasından 10 ay keçməsinə baxmayaraq biz bunun tam əksini görürük. Erməni silahlıları nəinki bölgədən çıxarıldı, əksinə zaman-zaman Ermənistandan Qarabağa silahlılar gətirilib Azərbaycan postları ilə üzbəüz dislokasiya ediliblər. Ən təhlükəli məqam isə odur ki, Rusiya Müdafiə Nazirliyi artıq onları Dağlıq Qarabağın silahlü qüvvələri kimi təqdim edir. Bu da təbii ki, Rusiyanın bütün anlaşmarı pozaraq Dağlıq Qarabağdakı separatçı rejimi faktiki tərəf olaraq qəbul etməsi deməkdir. Erməni silahlıları da, Rusiyanın əslində bölgədə sülhməramlı deyil, erməniməramlı kimi özünü aparmasından çox razıdırlar, bu da onların əlini-qolunu açır.**



**Ona görə də əvvəllər Azərbaycanla Ermənistanla sərhəddə əgər insidentlər yaşanırdısa, artıq bu təxribatlar Qarabağın içərilərinə doğru genişlənib".**

Bu sözləri son günlər Qarabağda ermənilərin tez-tez atəşkəsi pozmalarına münasibət bildirərlən, siyasi-ekspert Yeganə Hacıyeva "Adalet.az"-a deyib.

Onun sözlərinə görə, bir zamanlar Azərbaycana atəşkəs üçün yalvaran ermənilər artıq ruslara güvənib Azərbaycan silahlılarını aşkar atəşə tuturlar:

"Biz bilirik ki, Laçın koridorları boyu Qarabağdakı erməni quldurlarına silah-sursat göndərilir. Rusiyalı sülhməramlılar Qarabağda nəinki sülhün təminatı ilə məşğuldurlar, əksinə ermənilər onların gözü qabağında atəş açırlar. Rusiya hərbçiləri Qarabağda sülhməramlı missiyasından başqa hər şeylə məğul olurlar. Bunlar əvvəldən də ehtimal olunurdu.

Düşünürəm ki, Azərbaycan ermənilərin bu təxribatına çox dözməyəcək. Hər nə qədər ermənilər ruslara arxayın olsalar da. Azərbaycan anti-terror əməliyyatlarını aparmaq haqqını özündə saxlayıb. Əsas məsələ, Rusiyanın burda necə mövqe tutmasdır. Azərbaycan anti-terror əməlyyatlarına başlayanda Rusiyanın sərgiləyəcəyi mövqe onun ümumiyyətlə bu məsələyə necə münasibət bəslədiyini nümayiş etdirəcək.

Yəni Rusiyanın əsl siması ortalığa çıxacaq. Təbii ki, Rusiya aşkar ermənilər tərəfində vuruşmayacaq. Onsuz da Rusiya erməniləri aşkar silahlandırmaqla hansə tərəfdə olduğunu göstərdi. Ona görə də, Qarabağda vəziyyətin günü gündə təhlükəli məcrada inkişafı göz önündədir. Böyük müharibə olmasa da, düşünürəm ki, mobil formada anti-terror əməliyyatlarının olması qaçılmazdır".

**İltifat HACIXANOĞLU**

*İradə TUNCAY*

## İnteryerdə portret

**Əslində portret mürəkkəb janrlardan biridir. Həm populyar, həm də peşəkarlıq tələb edən. Əvvəllər yalnız saraylarda çox istifadə olunan, sonralar daha demokratikləşən, hamıya yaxın ola biləcək bir janr. Amma nəzərə alsaq ki, hər kəsin tanımadığı bir sima nə qədər maraq doğura bilər ki? Deməli, obraz elə seçilir ki, onu hamı həyatının bir hissəsi kimi qəbul edir. Bu da əksər hallarda saraylarda yaşayan, rəğbət və ya nifrət qazanan kimsə ola bilər. Sənətin müxtəlif növləri - ədəbiyyat da, təsviri sənət də məhz belə məşhur obrazlara müraciət edib. Xatırlasaq üzü Renessansdan bu tərəfə nə qədər usta müəlliflərin əsərləri var bu janrda. ...İndi isə foto da qarışıb bu çalışmalara. Mahiyyət eynidir - təsvir olunan obyektin daxili və xarici xarakteristikasın dəqiq çatdırmaq. Görünən reallığı dəqiq çatdırmaq. Perspektivi çatdırmaq. Sosial mühiti, mənsub olduğu zümrəni göstərə bilmək və bu zaman müəllifin təsvir etdiyi obraza münasibəti də aydın görünəcək, ustalığı aydın bilinəcək. Xarakterin interpretasiyası, xarici görkəmdən çıxış edərək mənəvi aləmə xitabı səslənəcək. Ən məşhur yazıçılar portret janrında yazdıqları ilə ədəbiyyatda yer tuta biliblər. Sveyqin, Moruanın əsərlərin xatırlayaq. Sveyq qadın obrazlarına daha çox diqqət edib - Mariya Styuart, Mariya -Antuanetta... Lider qadınlar...**





**Qadın olmaq... Qadın olmaq çətindir, bəs lider olmaq? O da çətindir. Qadın lider olmaq? Ay aman, müsibətdir.**

**... Bəs, Şərq ölkəsində qadın olmaq, lider olmaq necə? Cavab verə bilmirəm...**

**Mehriban Əliyeva - ölkənin First Ladysi... Hamının maraq dairəsində olan bir xanım... Yəni boğazdan yuxarı sözlər deyil - həqiqətən belədir... Hər zümrədən olan insanların diqqət mərkəzində - hər kəsin öz istəyi var ondan. Yaxın tariximizdə tamam yeni bir obrazdır - həm siyasi anlamda, həm də mənəvi... Əslində bir xarakteri açmaq üçün həmin adamın kənardakı insanlara necə münasibətdə olduğunu bilmək yetərli. Necə bilmək olar? Siyasi tərəfləri qoyaq bir tərəfə - mənəvi anlamda danışsaq??? İlk gözə dəyən mərhəmət hissi olacaq. Onun hakimiyyətdə göstərdiyi performans məhz bu tərəfdən açıldı. Mərhəmət!!! Şəfqət!!!**

**Zövq... Bu da daxili keyfiyyətdir, heç nə ilə alınan bir nəsnə deyil. Məncə, genetik keyfiyyətdir. Sonradan formalaşması çətin prosesdir...**

**Daha bir genetik xüsusiyyət isə dünyada gedən mədəni dəyişimləri dərindən bilməkdir. Yazıçı ailəsinə, söz aləminə mənsub olması da çox problemlərə münasibəti göstərə bilir. Hər halda mən belə düşünürəm. Və sonra məmləkətin ən önəmli adamının ailəsinə düşüb də burda formalaşmaq. Maraqlı taledir... Üstəlik də xarici görkəmin də belə maraqlı ola... Və belə qarışıq dövrə rast gələsən, belə dövrü yönətmək iqtidarın ola... Ailə bütünlükdə ölkənin azadlıq əsgəri oldu. Qarabağın xilası səadəti nəsib oldu. Göz önündə o tarixin necə baş verdiyini yaşadı... Əlbəttə, ona həsəd aparanlar da çoxdur. Ayın görünməyən tərəfi də var axı -görünməyən tərəfdə isə ağrı-acı da çoxdur... Nə çətindi amma zərif xanım vücudunda səni əhatə edən güclülərə öz iradəni göstərə biləsən...**

**Əslində biz hər hansı tarixi sima haqqında tam həqiqəti bilmirik - yəni müasiri olduğumuz simalar haqqında... Deyək ki, insan haqqında yazdığı məktublar da çox həqiqətləri danışır... Təəssüf bunu bilmirik...**

**Amma bildiklərimiz də çoxdur - ölkədə gedən bütün möhtəşəm tikintilər onun imzasıyla gedir. Bilirik ki, bunları Mehriban xanım edir... Monteneqroda görmüşəm, dağın ətəyindən çəkilən yol hündürdən M hərfiylə görünür... Kraliçanın adı M hərfiylə başlanır. Bəlkə getdiyimiz dağ yollarında bizim Mehribanın da öz işarəsi olsun? O, bunu haqq edib... Poetik, həyatsevər, isti qammalarda təqdim edib öz portretini...**

Nicat NOVRUZOĞLU



# Pul veririk ki...

*...vaksin olunmayım, amma COVİD pasportu alım.*

*Yoluxma sayı çoxdandır ki, dörd rəqəmlidi. Ölən sayı isə iki rəqəmli. Azərbaycan üçün hər ikisi böyük rəqəmdi. Belə məqamda bir televiziya aparıcısı çıxır deyir ki, ay aman, peyvənd olunmayın, vaksin vurduranlar yoluxur. Sonra bir siyasətçi çıxır deyir ki, bu dünyanın əhalisini azaltmaq üçün əvvəlcədən düşünülmüş bir oyundu, vaksin vurdurmayın, qırılacaqsınız.*

*Sonra biri çıxıb deyir ki, peyvənd sonsuzluq yaradır. O birisi yazır ki, iki ildən sonra peyvənd öz mənfi təsirini göstərəcək və s.*

*Bu əsası olmayan, fakta söykənməyən fikirlər işıq sürəti ilə yayılır məmləkətimizə. Çünki insanlar gözləri və qulaqları ilə COVİD-lə bağlı hər bir məlumatı axtarırlar. Səhv və ya düz, fərqi yoxdur, onlar bu məlumatları oxuyurlar və oxumayanlara da çatdırılar. Mahiyyətinə varmadan.*

*Hökumət isə deyir ki, vaksinləşin. Qorunmağın və mübarizə aparmağın yolu vaksindir.*

*Dövlət hər kəsə çatacaq qədər vaksin alıb. Və vaksinləşməyənlər üçün müəyyən məhdudiyyətlər tətbiq edir. Edir ki, məcburiyyətdən vaksinləşsinlər.*

*Bəs vətəndaşlar neyləyir? Biri alır, biri isə satır.*

*Bütün günü kasıbçılığından, maddi sıxıntılarından danışan şəxs 300 manat pul götürüb başlayır özünə COVİD pasportu axtarır.*

*Yəni yuxarıda qeyd etdiklərimizin təbliğatına uyaraq dövlətə inanmır, əl atır saxtakarlığa. Digər birisi - əyninə ağ xalat geyinib sağlamlığımızın keşiyində durmağa məsul olan isə başlayır pasport satmağa. İynəni, yəni birinci dozanı vətəndaşa vurmur, boşaldır zibilə.*

*Sonra isə növbəti zaman yetişəndə yenə eynisi ilə ikinci dozanı da zibilliyə boşaldıb portala qeyd edir ki, artıq filankəsov filankəs vaksinləşdi. Al, bu da sənə COVİD pasportu. O da çıxıb çöldə forslanır ki, alın ha, yana-yana qalın ha, bu, mənim COVİD pasportumdur.*

*Bir belə, beş belə, axırı bu "əməliyyat" gedir çatır qandal vuranın qulağına. Gəlib hoqqabazları qandallayıb aparıb basırlar dama. Camaatın həyatı ilə oynayıb ailəsinə "çörək" aparanların aqibəti necə olmalıdır ki?*

*Lakin bunların birini tuturlar, o birisinə dərs olmur. Öz işindədir. Alır-satır.*

*Bəs bunlar niyə "stop" eləmir? Çünki onlar cəzadan qorxmurlar.*

*Məncə bunların qarşısını almaq üçün cəza sisteminə nəzər yetirmək lazımdır. Bu hoqqabazları birbaşa göndərmək lazımdır COVİD üçün ayrılmış xəstəxanalara ki, gedib orda yaşamaq uğrunda mübarizə aparanlara qulluq eləsinlər. Görsünlər ki, etdikləri cinayətin necə fəsadları var. Bu cinayət ictimai qayda əleyhinə olan cinayətdir. Ona görə də əvvəlcə onlara bu cür cəza tətbiq edilməlidir. Ən azı istintaq dövründə. Sonra isə cinayətlərinə hüquqi qiymət verilə bilər.*

# Atatürkün Türkiyəni var edən əmri

**Dünya hərb tarixinin ən möhtəşəm savaşlarından biri Atatürkün "Melhame-i Kübra!" adını verdiyi Sakarya Meydan Müharibəsidir.**



22 avqustda başlayıb 11 sentyabra qədər davam edən 22 gün, 22 gecə qana-qan, süngüyə-süngü ən qanlı müharibələrdən biri.

Bu müharibəyə "Zabitlər müharibəsi" deyirlər.

Səbəb isə tarixdə görülməmiş şəkildə bir çox zabitin həlak olmasıdır. Türk ordusunda 277 zabit şəhid olmuş, yunan ordusunda isə 208 zabit həlak olmuşdu.

Sakarya Meydan Müharibəsində Türkiyə Böyük Millət Məclisi ordusu 5 min 436 şəhid verir, ümumi yaralı sayı isə 17 min 500 olur. Yunan ordusu isə 3 min 750 döyüşçü itirir.

Atatürkün bu savaşda verdiyi əmr sloqana çevrilir:

"Xətt müdafiəsi yoxdur, yerüstü müdafiə var. Bu ölkənin hər yeri Vətəndir".

Bu əmrlə 1683-cü ildə Vyana ilə başlayan və düz 238 il davam edən torpaq itkisi və geri çəkilmə faciəsinə Sakaryada son verilir.

Türkün uğursuz taleyi və o günə qədər bilinməyən, tətbiq olunmayan yeni bir müdafiə strategiyası ilə tərsinə çevrilir.

Atatürkün sloqana çevrilən cümləsinin davamı belə idi:

"Yurdun hər qarış torpağı Vətən övladlarının qanıyla islanmadıqca, düşmənə verilə bilməz".

Bu əmr türkün yüz illərlə davam edən qovulma prosesi dayanmış və tarixə bənzərsiz bir komandan qazandırmışdı.

Yunan ordusu məğlub edildikdə və Eskişehir Afyon xəttinə çəkildikdə tam bir il gözləmə müddəti başlayır və bu, Türk Ordusunun bütün gücüylə böyük bir hücuma hazırlaşdığı dövr olur.

Atatürk 19 sentyabr 1921-ci ildə TBMM-də deyir:

- Bütün cahanın bilməsi vacibdir ki, türk xalqı Türkiyə Böyük Millət Məclisi və onun hökuməti ələ salınmağa dözə bilməz! Müttəfiq dövlətlər belə varlığımızı və milli müstəqilliyimizi tanıyarsa, bizimlə aramızda qarşıdurmaya heç bir səbəb olmayacaq. Dərhal sülh əldə oluna bilər...

Atatürk bu qələbədən sonra belə barış, sülh istəyir, hətta yunanların adını çəkmir, "müttəfiq dövlətlər" deyəndə İtaliya, İngiltərə və Fransaın yaratdıq imperiyalist işğalçıları nəzərdə tuturdu. Amma çifayda! Görünür son zəfərin qazanılması lazım idi. 1922-ci ilin avqustunda Dumlupınarda Baş komandanlıq Atatürkün "Ordular, ilk hədəfimiz Ağdənizdir" əmrilə hücuma keçir, başda ingilislər olmaqla müttəfiqlərinin "əsla keçilməz" dediyi düşmən istehkamları yerlə yeksan olunur, Yunan ordusunun baş komandanı Trikopis və silahdaşları qaçmağa çalışarkən tutulur və 9 sentyabrda İzmirdə dənizə tökülür.

Əgər Sakarya qələbəsi olmasaydı, bu qələbə də olmayacaqdı. Bu qələbə olmasaydı, Türkiyə var olmayacaqdı və tarixə qovuşacaqdı.

Bundan öncəki yazımda "Biz Vətəni səngərdən bu yana dartmadıqca" başlıqlı yazımda bundan bəhs edirdim.

Ümit Zilelinin köşə yazısındakı bu tarixi məlumatları o yazıya daha geniş mötərizə açmaq üçün əla fürsət oldu.

Böyük şəxsiyyət Atatürkün də dediyi ki, hər yer Vətəndir. Vətən müdafiə xəttindən, sərhəddən başlamır.

**Və onun hər qarışı ya qanla qarışmalıdır, ya da tərlə. Ki, Vətən olsun!**

**İkisi də döyüşün məhsuludur.**

**Eminquey**

Emin Piri

# HÜSEYN EŞQİ



**Baş yarmaqlar, mazoxist əməllər, anlamsız qadağalar və təxribatçı insanları, meylləri bir kənara qoyaq. Bunun fövqündə dayanan insanlardan danışaq. Hamınızın evində, ətrafında buna inan, sayqı duyan sevənlər var. Lap ən doğmalarınız arasında...**

**İki-üç mazoxist, şit dini mahnılar oxuyan, fərd bütpərəslərindən və təlim agenturasından başqa şahidlik və sevgidən başqa nə edirlərki?**

**Onları qazanmaq əvəzinə hamısını külliyatı ilə damğa yapışdıraraq uzaqlaşdırmağın adı nədir?**

**70%lik bir kütlənin inandığı, digər faizlərininsə bir çoxunun sayqı duyduğu bu qədər toplam hamısı damğa götürə biləsi insanlar ola bilməz hər halda. Bəlkə tərsinədir? Bunu düşündünüzmü heç? Bəlkə ağız dolusu qınayanlar?**

**Ona görə də hər hansı sorunsuz inanan, mədəni sayqı duyanları qınamanız elə özünüzü qınamaqdır və qeyri-səmimidir.**

**Yüz illərdir sidq ürəklə inanılan, bu inancla müəyyən anlamda saflaşan, yardımlaşmağa, birliyə aparan bir təlim( məhz həm də təlim) niyə qıcıq doğurmalıdır? Vaxtilə, bu qıcıq bəzi insanların bundan uzaqlaşmasına deyil, əksinə öz əlimizlə digər dövlətlərin inanc altında yeritdəyi təlimlərin qucağına atmağa səbəb olmuşduq.**

**Son illər dövlət, bəzi qurumların ayıq düşərək aşuranı və.s özü keçirməsi əksinə daha yaxşı addımdır. Bir növ insanları küsdürüb uzaqlaşdırmır, əksinə özünə, dövlətə qazandırmış olur. Çünki istənilən halda bu təsir əks-təsirə malik olur. Qadağalarla son qoymaqmı? Bu təsirlər onu göstərir ki, tutaqki yüz nəfərdən 50 nəfəri uzaqlaşdıra bilirsənsə, əvəzində əlavə 50 radikal qazanmış olursan. Rəqəmlər təxmini ola bilər. Amma bu, həqiqəti dəyişmir.**

**Özünü sevgi dolu, bəşəri eşq, liberal dəyərlər adıyla oyunbazlıqlar cəmiyyət formatında uğur gətirmir, fərdi olaraq müvəqqəti layka və populyarlığa səbəbdir. Sadəcə bu...VəssalaM.**

**Təsiri sonra şöhrəti də öz içində yeyərək ifraza çevirir zamanla. Lap başda qeyd etdiyim kimi 1%lik istisnaları kənara qoyaraq 99%i bu inanca, təlimə görə pul alır?**

**- Xeyr.**

**Bunun qarşılığında yüksəliş və.s gözləyir?**

**-Xeyr.**

**Hətta nələrəsə qınaq ola və ya nədəsə qarşısı kəsilə bilər?**

**-Bəli.**

**Eləsə bunun adı sidq ürəklə inanmaq və eşqdir. Cisim məhv ola bilər, fikirlər və eşq həmişə yaşayır. Elə Hüseyn kimi...**

# Tibbi yardım kampaniyasına qoşulan yunanıstanlı: "Mazandarandan gələn gəmi..."

**Artıq heç kəsə sirr deyil ki, Rusiya 10 noyabr tarixli birgə bəyanatda nəzərdə tutulmuş hüdudları aşan addımlar atmağa başlayıb. Elə bu səbəbdən də Azərbaycan Rusiya sülhməramlılarına xəbərdarlıq etdi.**



Adalet.az xəbər verir ki, buna baxmayaraq Rusiya sülhməramlıları hələ də Qarabağda öz bildiklərini edirlər. Onların həkimləri Ağdərədə 250-dən çox erməniyə tibbi yardım göstərib. həkim qəbuluna ehtiyacı olanlar Azərbaycanın Ağdərə şəhərindəki səhra xəstəxanasında qəbul edilib və onlara tibbi yardım göstərilib. Dağlıq Qarabağda yerli sakinlərin müraciətləri və müalicələri Xankəndi və Ağdərə şəhərlərində qurulan səhra xəstəxanalarında aparılır. Uzaq olan bəzi ərazilərə isə səyyar həkim qrupları tibbi xidmət göstərir..





***Rusiya Müdafiə Nazirliyinin məlumatına görə, xəstəxana fəaliyyətə başladığı gündən bu günə qədər 157-i uşaq olmaqla 1200-dən çox erməni ixtisaslı tibbi yardım alıb. Nazirlik bildirib ki, pasiyentlərin müraciətləri daha çox müxtəlif xroniki xəstəliklərin, ürək-damar və endokrin sistem xəstəliklərinin kəskinləşməsi və diş müalicəsi ilə əlaqədar olub.***

Sülhməramlıların tibbi şöbələrində hərbi cərrahlar, anestezioloq-reanimatoloqlar, terapevtlər və epidemioloqlar da daxil olmaqla 60-dan çox tibb mütəxəssisi çalışır.

Ümumilikdə, xeyriyyəçi təşkilatları və fondlar vasitəsi ilə Rusiya sülhməramlıları, səhiyyə müəssisələri üçün qida və ehtiyac məhsulları, ixtisaslaşdırılmış tibbi avadanlıqlar və ilkin diaqnostika dəstləri ilə yanaşı, Qarabağdakı ermənilərə 220 tondan çox humanitar yardım verilib", - Rusiya Humanitar Yardım Mərkəzinin zabiti Ruslan İvanov deyib. Çapar, Cütçü, Umudlu, Vəng və digər kəndlərdə vaxtaşırı bi tip aksiyalar həyata keçirilir..

Əslində Bu belə olmalı deyil. Çünki, Rusiyanın Qarabağda məramı sülh olsaydı, Azərbaycanın Qarabağdakı erməni vətəndaşlarına nə humanitar, nə də tibbi yardım göstərərdi. Deyərdi ki, sizin dövlətiniz Azərbaycandır. Siz Azərbaycan vətəndaşısınız və əvvəl -axır bu gerçəyi dərk etməlisiniz! Dərk etdikdən sonra Azərbaycan vətəndaşı olaraq Azərbaycan qanunlarına da riayət etməlisiniz.

Hamımıza aydındır ki, Rusiya sülh yaratmaq missiyasına xidmət göstərtərsəydilər, 10 noyabr Bəyannaməsinin şərtlərini həyata keçirərdilər.

Son nəticə olaraq Rusiya SM maddi, mənəvi, tibbi yardımlarla Qarabağ ermənilərinin sırf Azərbaycan hökümətinə tabe olmamasını əngəlləyirlər. Yəni biz varıq, Azərbaycan hökümətinə ehtiyac yoxdu... Amma anlamırlar ki, bir gün necə deyərlər dönəlgələri dönəcək! İnşallah o gün uzaqda deyil.

***Bu prosesə canfəşanlıqla qoşulan daha bir nəfəri kəşf etdik. 17 avqustdan etibarən Afina milli universiteti ginekologiya kafedrasının müəllimi, tibb elmləri doktoru Sofiya İvanidu Xankəndində ginekoloji problemləri olan qadınları və yeniyetmə qızları müayinə edərək həkim məsləhətləri verir. Təbii ki bu da Rusiya SM-mım təşkilarçılığı ilə baş verib.***

Azərbaycan dövləti və ictimaiyyətinin dəfələrlə xəbərdarlığına rəğmən Laçın dəhlizindəki rəsmən sülhməramlı Rusiya hərbi kontingenti rəsmi Bakının razılığı olmadan xarici vətəndaşları ölkəmizin ərazisinə buraxmaqda davam edir.

**Artıq bu 10 noyabr Bəyanatı nə qədər öz aktuallığını saxlayacaq bilmirəm. Amma onu deyə bilərəm ki, atalarımızın bir misalı bu yerdə lap yerinə düşür: "Mazandaranda çaqqal az idi, biri də gəmiynən gəldi".**

**Əntiqə**

## Ərdoğandan Kabil terroru ilə bağlı açıqlama



**Millət olaraq Kabildə baş verən dəhşətli terror aktını qınayırıq.**

**Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.**

**"Bu terror aktının məsuliyyətini İŞİD üzərinə götürüb. İŞİD-in bu addımı atması həm bölgədə, həm də dünyada nə qədər təhlükəli bir təşkilat olduğunu ortaya qoyur", - Ərdoğan bildirib.**

**MEHRİBAN**

# Başı o dəqiqə kəsməyin, yavaş-yavaş kəsin, əziz Taliban!



**Taliban haqqında yazılan məsləhətləri oxuyuram. Deyirlər ki, Amerika birdən qurulmur ha. Bu dəfəki Taliban biraz mülayim gəlib. Ona görə də məsləhət verəndə biraz yumşaq olun.**

İndi yumşaq-yumşaq, yavaş-yavaş, ehmal-ehmal oxuyun. Bu adamlar nə demək istəyir?

Talibana deyək ki, qadınları küçədə şallaqlamayın. Əvvəlcə evlərində, sonra eyvanda, sonra baxçada şallaqlayın. Yavaş-yavaş da. Nə olub? Bütün bu yumşaq keçidlərdən sonra nəhayət küçədə şallaqlayarsınız. Belə verəkmi məsləhətimizi?

Yoxsa deyək ki... Başı o dəqiqə kəsməyin. Ehmal-ehmal kəsin. Yavaş-yavaş kəsin, əziz Taliban. Beləmi?

Yaxud əvvəlcə axırıncı sinifdə oxuyan qızları məktəbdən uzaqlaşdırın, dalınca da yavaş-yavaş, ehmal-ehmal aşağı sinifdəkiləri. Bir müddət keçsin, bütün qız uşaqlarını məktəbə həsrət qoyun. Bağlayın evlərə. Ayaqlarınızı, alt paltarlarını yusun, qabağınıza yemək gətirsin. Beləmi?

Məsələn, ermənilər Qarabağı yavaş-yavaş, ehmal-ehmalmı işğal etmişdilər?

Məsələn, Sovet ordusu 20 yanvarda insanları yavaş-yavaş, ehmal-ehmalmı əzib keçmişdi?

Lap elə koronavirus...

Yavaş-yavaşmı meydana gəldi?

Amerika yavaş-yavaşmı iqtisadiyyatını yüksəltdi bu virusun nəticəsində?

Bu yavaş-yavaş təfəkkürü bizi dala atmadımı?

Yavaş-yavaş, ehmal-ehmal cahilləşməyə gedirik...

**Allah yavaş-yavaş bizi bağışlasın...**

**Eminquey**

# Azərbaycanda kənd təsərrüfatında tətbiq olunan PUA hazırlanıb

**"Elm və Texnologiya Parkı" MMC kənd təsərrüfatında tətbiq olunan pilotsuz uçuş aparatı istehsal edib.**

Bu barədə AMEA-dan məlumat verilib.

Pilotsuz uçuş aparatı (PUA) (NF-10) ilə Neftçala rayonunda fərdi fermer Rahim İmanova məxsus pambıq sahəsində uçuş keçirilib. Görüşün əsas məqsədi müəssisənin istehsal etdiyi dronun, həmçinin multispektral kamera vasitəsilə çəkilişlərin və PUA-nın pambıqçılıqda tətbiqi imkanlarını nümayiş etdirməkdir.

Uçuş missiyası 20 hektar sahədə, 37 dəqiqə davam edib. PUA-ya birləşdirilən multispektral kamera (MicaSense RedEdge-M) vasitəsilə şəkillər əldə olunub. Fotoşəkillər "Agisoft Photoscan" proqram vasitəsilə emal edilib və sahə üzrə vegetasiya indeksi müəyyənləşdirilib.

Hazırda kənd təsərrüfatında geniş tətbiq edilən müasir və dəqiq texnologiyalardan biri NVİF (Normallaşdırılmış Vegetativ İndeks Fərqi) - NDVI (Normalized Difference Vegetation Index) analizidir. Bu texnologiya kənd təsərrüfatı sahələrinin xüsusiyyətlərini, aqrokimyəvi tərkibini təhlil etmək imkanları yaradır. Bu xidmət əkin sahələrinin səmərəliliyinin artırılması, maya dəyərinin azaldılması, ətraf mühitin qorunması və məhsuldarlığın artırılmasına yönəlmiş müasir texnologiyadır.

Kənd təsərrüfatı sahəsində multispektral analizin məqsədi fermerlərə əkin sahəsində görə bilmədiklərini müşahidə etmək, bitkilərin səmərəliliyini və sağlamlığını təyin etmək imkanının təqdim olunmasıdır. Müntəzəm olaraq NVİF analizi sayəsində kənd təsərrüfatı sahələrində dəyişikliklər dinamikasını izləmək, həmçinin torpaq sahələrinin məhsuldarlığı və münbitliyini müəyyən etmək mümkündür. NVİF həm də bitki örtüyünün sıxlığını xarakterizə edir ki, bu da bitkişünaslara (aqranom) bitkilərin cücərmə və böyümə vəziyyətini, torpaq sahəsinin məhsuldarlığını qiymətləndirməyə imkan yaradır.

**Mütəxəssislər NVİF vasitəsilə bitki örtüyünün bütün torpaq sahəsində, həm də onun ayrı-ayrı hissələrində kəmiyyət cəhətdən qiymətləndirilməsi, məhsuldarlığın hesablanması, bitkilərin cücərməsinin və böyüməsinin müşahidəsi, eləcə də torpaq sahələrinin məhsuldarlığının təhlil olunması imkanı əldə edirlər.**

## Bütün azadlıqların məqsədi hasar əldə etməkdir

**Tanınmış şair Aqşin Yenisey azadlığı qalın divarlar arxasında məcburiyyətə bənzədib.**

**Adalet.az həmin fikirləri təqdim edir:**

**"Evlərini pulunun miqdarına uyğun hündürlükdə hasarlarla gizləyən insanlara sosial insan demək olarmı? Sosial insan mağarada öldü. Azıxda.**

**Deyəcəksınız ki, bəs bina evlərində yaşayanlar da var, axı. Birincisi, onlar qədim Yunan-Roma aristokratiyasının zibilinə düşənlərdir. İkincisi isə, onların hasarları hələ yuxularındadır.**



**Sartr deyirdi ki, insan azadlığa məhkumdur. Amma harada? Qalın divarların, keçilməz hasarların arasında. Azadlıq təhlükədir. İnsan özünü tanıyandan azadlıqdan qaçır.**

**Müxtəlif siyasi azadlıqlar, söz və fikir azadlığı bunlar qondarma azadlıqlardır. Dünyada milyardlarla insan var ki, söz və fikir azadlığını alıb qoyub evə, heç hara qoyduğunu özü də bilmir.**

**Bütün siyasi azadlıqları olan fransız Mişel Fuko, məsələn, heç bir siyasi azadlıq tanımayan İran İslam İnqilabının heyranı idi.**

**Bütün azadlıqların məqsədi hasar əldə etməkdir!"**

**Emin Piri**

## Vaksin növbəsi, basabas, sosial məsafəsizlik...

**"Dünən getdim vaksin vurduram. 3 saat basha-bas, növbə. Axşam elan elədilər: dağılışın, sistem çöküb! Yanımdakı qoca deyindi: hər gün belədi. Cavab verdim: bilirəm..."**



Adalet.az xəbər verir ki, bu postu Lalə Əliyeva öz feysbuk səhifəsində paylaşıb.

Zaman: Səhər saat 6.

Məkan: Bakı, 8 saylı şəhər poliklinikası.

Vaqeə: Vaksin növbəsi.

İştirakçılar: Məsuliyyətsiz xalq.

Əsərin adı: Cinayət (TƏBİB: "iynə vurdurmamaq cinayətdir!" ) Və cəza (DİN: "3 gündən sonra baxarsuz!")

**Eminquey**

Nicat NOVRUZOĞLU

## - BƏLKƏ, YIXILIRLAR YAZIM? - YOX, ÖLÜRLƏR YAZ!

*Deməli, 5-10 "aypi" yığmaq üçün saytlarımız belə manşetlər atırlar: "Şok! Şok! Şok! Qardaş ülgüclə bacısının başını kəsdi"; "Ata qızının başını kəsdi"; "Qayınata gəlininin başını kəsdi"; "Qadın ərinin başını kəsdi".*

*Nə bilim, at gəldi örkən apardı, it gəldi çarıq apardı. Adi bıçaqlanma hadisəsini millətin gözünə belə soxurlar. Və yaxud, "Filan aktrisanın çimərlikdə biabırçı fotoları yayıldı. Bax: fotolar"; "Sibel Canın döşləri göründü. Bax: fotolar".*

*Bizim umsuqlar da tez girir sayta ki ya Sibel Canın döşlərini görəcək, ya da həmin aktrisanın "biabırçı" fotolarını. Amma heç biri yoxdur.*

*Hansısa kinoda belə bir yer var. Rusiyadan getmiş deyəsən bir jurnalist bir kinoaparata pul atır ki, soyunan modeli görsün. Model də soyunur-soyunur, əynində axırıncı geyimi qalanda aparat donur və yazır ki, yenə pul at. Jurnalist də sağa-sola baxır, görür heç kim yoxdu, yenə pul atır. Model bu dəfə geyinir və çıxıb gedir.*

*İndi bizim saytlar da "aypi" xətrinə həmin yolu tutur.*

## Zelenski Kişinyova uça bilmədi



**Moldovanın müstəqilliyinin 30-cu ildönümünü qeyd etmək üçün Kişinyova gedən Ukrayna Prezidenti Vladimir Zelenskinin təyyarəsi əlverişsiz hava şəraiti səbəbindən Odessaya enmək məcburiyyətində qalıb.**

**Bu barədə Odessanın "Dumskaya" nəşri məlumat yayıb. "Güclü duman səbəbindən təyyarə Odessaya hava limanına endi", - məlumatda bildirilib.**

**Qeyd edək ki, Moldova hakimiyyəti Rumıniya və Ukrayna prezidentlərinin Kişinyova vaxtında gələ bilmədikləri üçün bayram tədbirlərinin başlamasını təxirə salıblar.**

**MEHRİBAN**

# Burda piyadalar tez-tez vurulur

**Bu gün Bakı şəhərində yol-nəqliyyat hadisələrinin 50 faizindən çoxunu piyadavurma halları təşkil edir. Bu da təsadüfi deyil. Gəlin onu da etiraf edək ki, həm sürücülər, həm də piyadalar yol- hərəkəti qaydalarına əməl etmirlər. Elə bil bir qədər tələsdik. Yol- hərəkəti qaydalarına əməl edən sürücülər də var, piyadalar da. Ancaq bu, o qədər də çox deyil. Ən azından ona görə ki, əgər bütün hərəkət iştirakçıları qayda-qanuna riayət etsəydi, paytaxtımızda piyadavurma halları 50 faizdən yüksək olmazdı.**

Deməli yenə əvvəlki fikrimizin üstünə gəlirik ki, istər sürücülər, istərsə də piyadalar "Yol hərəkəti haqqında" Qanunu tez-tez pozurlar. Sürücülər piyadalara yol vermir, piyadalar da çox vaxt təyin olunmuş yerdən yox, qeyri-qanuni və hərəkətin intensiv olduğu yerlərdən keçirlər. Bu isə birmənalı olaraq yol-nəqliyyat hadisəsinin baş verməsinə və piyadanın vurulmasına gətirib çıxarır.

Bizim yaşadığımız Suraxanı rayonunun Yeni Günəşli massivindəki Abbas Fətullayev küçəsində də tez-tez piyadavurma halları yaranır. Ən çox da bu hadisə "Ballı" market tərəfdən "Bərəkət" marketə keçərkən olur. Elə ay olmaz ki, burda yol-nəqliyyat hadisəsi baş verməsin.

Artıq piyadalar bu yeri keçərkən həyəcanlanır və səksəkəli anlar yaşayırlar. Çünki həmin yerdə yerüstü keçid zolaqları yoxdur. Düz-



dür, ondan 150 metr aşağıda piyada keçidi var. Amma piyadalar ordan yox, "Ballı" marketin qarşısından küçənin digər tərəfinə keçir və geri qayıdırlar. Bəzi intizamlı sürücülər piyadalara şərait yaradır və onların təhlükəsiz keçməyinə kömək göstərir. Ancaq əksər sürücülər hər yerdə olduğu kimi Abbas Fətullayev küçəsində də nəqliyyat vasitəsini yüksək sürətlə idarə edir və piyadaların yolu keçməsi üçün şərait yaratmır.

Mövcud qanunla piyadalar heç həmin yerdən keçməməlidilər. Çünki dediyimiz yerdən yerüstü piyada keçidi yoxdur. Və ən qəribəsi də odur ki, həm sürücülər, həm də piyadalar burda çox çətin anlar yaşamalı olur. Yəni yolu qanunsuz keçən piyada vurulursa, deməli, bu məsuliyyəti sürücü daşıyır. Yaxınlıqda yaşayan bir neçə sakin də bizdən xahiş etdi ki, bu məsələni Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi qarşısında qaldıraq və onlar da hərəkətin təhlükəsizliyi üçün lazımi ölçü götürsün. Yoxsa əks təqdirdə burda piyadavurma halları hər gün baş verməsə də, ən azından ayda bir dəfə ola bilər.

Həmin məsələ ilə əlaqədar Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr bölməsinin rəisi, polis polkovniki Vaqif Əsədova müraciət etdik. Cənab polkovnik bildirdi ki, bu məsələni gündəmə gətirdiyinizə görə sizə öz təşəkkürümü bildirirəm. Təbii ki, bizim də hərəkətin təhlükəsizliyi ilə bağlı bölməmiz həmin yerdə baxış keçirər, araşdırmalar aparar və qanun yol versə, yerüstü keçidin olması üçün lazımi addımlar atar. Amma yenə təkrar edirəm. Hər şey dəqiq araşdırmalardan sonra bəlli olacaq və bu araşdırmanın nəticəsindən sonra bəlli olacaq ki, həmin ünvanda yerüstü keçid olsun, ya olmasın. Hər halda, biz hərəkət iştirakçılarının təhlükəsizliyin təmin edilməsini həmişə diqqət mərkəzində saxlayırıq və çalışırıq ki, piyadalarla bağlı mövcud problemləri vaxtında həll edək ki, baş verə biləcək hadisələrin qarşısını alaq və bunları minimum həddə endirək.

Göründüyü kimi, Yeni Günəşli sakinlərinin narahatlığı Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi tərəfindən də diqqət mərkəzində saxlanılır və onların təhlükəsizliyinin təmin edilməsini həyata keçirmək üçün qabaqlayıcı tədbirlər görülür.

**Biz inanırıq ki, məlum qurum təhlükəsizlik ilə əlaqədar zəruri addımları vaxtında atacaq və piyadalarla bağlı mövcud problemlərin həllində çalışacaqdır. Çünki hər hansı problem vaxtında həll edilərsə, qabaqlayıcı tədbirlər görülərsə, deməli hərəkət iştirakçılarının təhlükəsizliyi təmin edilmiş olar.**

**Faiq QİSMƏTOĞLU**

# Könül Nurullayeva: "Azərbaycan postmünaqişə dövründə BMT-dən ədalətli yanaşma gözləyir"

**"Cənubi Qafqaz regionunda sülh və təhlükəsizlik məsələsi yalnız bu bölgə dövlətlərinin deyil, nüfuzlu beynəlxalq təşkilatların da marağında olmalıdır". Bunu millət vəkili Könül Nurullayeva deyib. Deputatın bildirib ki,**

"Prezident İlham Əliyevin BMT-nin yeni rezident əlaqələndiricisi ilə görüşündə səsləndirdiyi fikirlər bunu bir daha təsdiq etdi. Dövlət başçımız açıq şəkildə 44 günlük müharibəyə görə məsuliyyətin yalnız işğalçı Ermənistanın deyil, onun işğalçılıq siyasətinə göz yuman beynəlxalq birliyin də üzərinə düşdüyünü bəyan etdi. Məsələ burasındadır ki, Azərbaycan 30 illik işğal dövründə dünyanın ən nüfuzlu təşkilatının Təhlükəsizlik Şurasının məlum qətnamələrinin icrası ilə bağlı məsələni ardıcıl şəkildə, ən yüksək səviyyədə, bütün mühüm platformalarda qaldırdı. Təəssüf ki, bu qətnamələr icra olunmadı.

Paralel olaraq, BMT TŞ-nin 5 daimi üzvündən 3-ü ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyətsizliyi işğalın davam etməsinə səbəb oldu. Paradoks isə budur ki, vasitəçi ölkələr bu müddət ərzində daimi üzvü olduqları təşkilatın qəbul etdiyi qərarların icrasına maraq göstərmədilər. Halbuki dövlət



başçımızın da söylədiyi kimi, məhz həmsədr ölkələr bu qətnamələrin icrasına nail olmaq üçün

lazımi mandata malikdirlər. Yəni, belə vəziyyətdə həmsədrlərdən yalnız təşəbbüskar və ədalətli olmaq tələb olunurdu.

Bu mənada rəsmi Bakı haqlı olaraq müharibəyə görə məsuliyyəti yalnız Ermənistanın yox, onu beynəlxalq hüquqa riayət etməyə məcbur edə bilməyən və ya bunu etmək istəməyənlərin üzərinə düşdüyünü bəyan edir. Prosesləri təhlil etdikdə aydın olur ki, işğalçıya qarşı vaxtında sanksiyalar tətbiq edilsəydi, MQ həmsədrləri Ermənistanı öz işğalçı qüvvələrini geri çəkməyə məcbur etsəydi, müharibə baş verməzdi. Məsələ burasındadır ki, Azərbaycan bu illər ərzində işğala məruz qalan tərəf olsa da, məsələnin sülh yolu ilə həllinə calışıb.

Danışıqlar masasında özünü adekvat aparmayan, sülh danışıqlarını pozan isə Ermənistan olub. Beynəlxalq təşkilatların işğalçının bu pozucu fəaliyyətini susqunluqla izləməsi isə vəziyyətin daha gərgin fazaya keçməsinə səbəb oldu.

Nəticə isə aydındır- Azərbaycan özü qətnamələri icra etdi. Prezident İlham Əliyevin də söylədiyi kimi, "Biz ədaləti, beynəlxalq hüququn normalarını bərpa etdik, BMT TŞ-nın qətnamələrini özümüz yerinə yetirdik".

Postmünaqişə dövründə də BMT başda olmaqla nüfuzlu təşkilatlardan məsuliyyətli olmaq tələb olunur. Xüsusilə UNESCO-nun ədalətli mövqe sərgiləməsinə ehtiyac var. Çünki işğal dövründə tarixi abidələrimizə dəymiş ziyanla tanış olmaq, onu düzgün dəyərləndirmək vacibdir. Azərbaycan adıçəkilən təşkilatı bölgəyə dəvət etsə də, UNESCO bundan imtina edib. Müharibə bitəndən sonra isə, əksinə, bölgəyə gəlmək istədiyini bildirir. Bu, açıq şəkildə ikili standart nümunəsidir.

Bununla belə, Azərbaycan buna da razıdır.

Çünki rəsmi Bakı gələcəyə baxmağın tərəfdarıdır. BMT rəsmisilə görüşdə dövlət başçımızın da qeyd etdiyi kimi, hazırda bizim əsas narahatlığımız dağıdılmış, tamamilə viran qoyulmuş ərazilərin bərpasıdır.

Azərbaycan işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində BMT ilə əməkdaşlığa ümid edir.

Bu ali təşkilat isə işğal dövründə olduğu kimi, postmünaqişə dövründə də laqeyd münasibətdən əl çəkməli, sülh prosesinə töhfə verməlidir".

## Hər gün qorxu içində məktəbə getməkdənsə...

**Müəllimlərin yay məzuniyyətinin bitməsinə az qalıb. Buna paralel olaraq koronavirusa yoluxma halları da artıb. Məktəblər açılmalıdırmı? Müəllimlər bu vəziyyətdə hansı yolu məqbul hesab edir?**

**Tarix müəllimi Günay ibrahimova hesab edir ki, məktəblərin yarı əyani, yarı qiyabi işləməsi daha məqbul variantdır.**



**"İlk 15 günü dərs bölgüsü və.s məsələlərə görə həftənin iki günü əyani, qalan günləri distant ola bilər. Yoluxma həqiqətən də artıb. Ətrafımda yoluxanlar həqiqətən çoxdur. Hər gün qorxu içində işə, məktəbə getməkdənsə, müəyyənlər qadağalar olsa yaxşı olar." Azərbaycan dili və Ədəbiyyat müəllimi Elnaz Eyvazsa məktəblərin bir mənalı olaraq açılmasını istəyir.**

**"Məktəblər açılmalıdır. Bir halda ki, virus həyatımıza daxil olub, onunla baş etməyi öyrənməliyik. Bəlkə proses daha uzun çəkəcək. Zatən pandemiyanın ən ağır zərbə vurduğu sahə təhsil sahəsidir. Distant təhsili əsla məqbul hesab etmirəm, görüntü tipli təhsildir. Nəticəsi formal. Özümüzü niyə aldadaq? Nəticə göz qabağındadır."**

**Emin Piri**

# 1077 il əvvəlin amansız "kəşfi": Bərdənin işğalı - 944-cü il

**Kəşflər var ki, bəşəriyyət həmin kəşflərin sayəsində bəşəriyyət oldu, insanlığı yaşatdı, dünyanı işıqlandırdı, lazımsız ölümlərin, fəlakətlərin, xəstəliklərin, qaranlığın , ehtiyacın qarşısını aldı. Amma elə kəşflərdə var ki, böyük bir toplumun yüz illərlə baş ağrısına, qətlinə, qarətinə, xəstəliklərlə, aclıqla, dağıntı və xarabalıqlarla üzləşməsinə səbəb olub.**

Məsələn, rusların Azərbaycan torpaqlarını kəşf etməsi, 1077 ildir ki, Azərbaycan xalqının bəlasına dönüb. Adalet.az xəbər verir ki, 944-cü il avqust ayının 24-də baş verən bir işğalın bu gün ildönüm günüdür.

### *İlk "ayaqaçdı" - Ticarətdən işğala*

Slavyanlar (ruslar) erkən orta əsrlərdə Azəraycan ərazilərində yerləşən bir neçə feodal dövlətlə, o cümlədən Xəzər xaqanlığı ilə ticarət əlaqələri yaratmışdılar. Həmçinin indi adı Volqa olan qədimlərdə isə İtil adlandırılan çay vasitəsilə Xəzər dənizinə gəmilərlə mal gətirir, çox vaxt isə quru yolla ticarəti genişləndirməyə səy göstərirdilər. Slavyanlar çox vaxt bu ərazilərdə, bəzən isə bu əraziləri keçərək Şərqlə ticarət əlaqələrinə girirdilər. Bərdə İpək yolu üzərində olduğu üçün o dövrdə ən geniş inkişaf etmiş böyük şəhərlərdən biri olub. Eyni zamanda torpağın münbit olması, suyun bol olması bu ərazilərdə kənd təsərrüfatının inkişafını genişləndirib.

Təbii ki, bu bol-bəhər rus tacirlərinin gözündən qaça bilməzdi. Üstəgəl, Bərdənin mühüm ticarət yollarının ayrıcında olması işğalçı ruhlu rusları cəlb etməyə bilməzdi.

Çox gəzib, çox görən rus tacirlərinin təsviri sayəsində Azərbaycan əraziləri Kiyev Rus dövlətinin maraq dairəsinə alındı . Böyük knyazlardan olan Oleq Veşiy daha sonra I Vladimir hərbi basqınlar, işğallar həyata keçirməyə başladı.

***Qədim ruslar əvvəllər ticarət üçün gəldiyi torpaqlara - Xəzər dənizi sahillərinə 864-1041-ci illərdə hərbi basqınlar, işğallar təşkil etdilər. Ruslar IX əsrdə Serklandda ortaya çıxdılar. Bəli, onlar Volqa ticarət yolu boyunca tacir kimi səyahət edir və xəz, bal və kölə satırdılar. Yerli camaatın sülhsevər, mehriban, qonaqpərvər olması onları daha çox qazanmağa, varlanmağa sövq etdi. Talançılıq və qarət məqsədli***



Alimlərin araşdırmalarına görə, İlk kiçik miqyaslı basqınlar IX əsrin sonları-X əsrin əvvəllərində baş verdi. 914-cü ildə ilk böyük miqyaslı basqınlarını etdilər; 500 gəmi ilə gələrək müasir İran ərazisindəki Qorqanı və qonşu əraziləri talan etdilər.Qul və qənimət əldə etdilər. Qayıdanda müsəlman xəzərlər şimal basqınçılarına Volqa deltasında hücum etdi və onları məğlub etdi. Qaçanlar orta Volqada yerli tayfalar tərəfindən öldürüldü.

***Rusların bu məğlubiyəti tez unutdular. Çünki, işğal etmək, insan qanı axıtmaq, bu yolla qazanmaq eşqi onlarda daha güclü inkişaf etmişdir.***

Tarixçilər bildirir ki, 944-cü il avqustun 24-də ruslar Azərbaycanda yerləşən Arranın paytaxtı Bərdəni işğal etdi. Dövrü üçün güclü silaha malik olan ruslar bir il burada qaldılar.Yəqin ki, burda daimi qalmaq onların əsas planı idi. Odur ki, işğalçılar yeni qurduqları hakimiyyətlərinin tanınması qarşılığında yerli camaata sadəcə öz dinlərində qalmağa imkan verdilər. Qədim tarixçilərə görə yerli insanlar ruslara daş ataraq və onlarla pis davranaraq sülhü pozdular. Ruslar sakinlərdən şəhəri tərk etmələrini tələb etdi. Bu ultimatum rədd edildi və ruslar insanları öldürməyə və fidyə üçün çoxunu əllərində saxlamağa başladılar. Bu qırğın danışıqlar üçün qısa da olsa dayandırıldı. Ancaq danışıqlar da pozuldu. Ruslar Bərdə şəhərini qonşu əraziləri talan etmək və əhəmiyyətli dərəcədə qənimət toplamaq üçün mərkəz olaraq istifadə etdilər Bu müddətdə onlar şəhərin sakinlərini öldürdü və böyük qənimət ələ keçirdi.

**Tarixi faktlara görə, ruslar 20 min bərdəlini qılıncdan keçirmişdilər. Darmadağın olan şəhərdə aclıq, xəstəlik insanları ölümə məhkum etdiyi zamanda rus əsgərlərinin sadə camaata qarşı amansızlığı da bir tərəfdən bərdəliləri məhv edirdi. Antisanitariya, aclıq Bərdədə o0 vaxt üçün qorxulu olan taun xəstəliyinin yayılmasına səbəb oldu.Dinc əhali ilə birgə xəstəlik həm də rus ordusunun içərisinə də sıçradı. 945-ci ilin 12 avqustunda rus qoşunu şəhəri tərk etməli oldu. Rusların talanlarından sonra uzun müddət Bərdə özünə gələ bilmədi.**

**Əntiqə Rəşid**

*Bizə yazırlar*

# MƏHKƏMƏ QƏTNAMƏSİ İCRA OLUNMUR

***Hörmətli cənab Aqil müəllim!***

***Məlumat üçün bildirirəm ki, Bakı Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 14 fevral 2020- il tarixli qətnaməsi ilə (hakimlər: .A.Məmmədov, Ş.Ə.Məhərrəmova və E.Y.Şamayev) mənim apellyasiya şikayətim təmin edilərək Bakı Şəhəri Yasamal Rayon Məhkəməsinin 19 iyul 2019-cu il tarixli qətnaməsi ləğv edilmiş, iddiam təmin edilib, cavabdeh "Qlobal SF" MMC-dən mənim xeyrimə 68.000 manat tutulmuşdur.***

***Həmin qətnamə ilə eyni zamanda Bakı Şəhəri Yasamal Rayon Məhkəməsinin 22 iyul 2019-cu il tarixli qətnaməsi iddiaçı Məmmədova Zeynəb Eynulla qızı tərəfmdən verilmiş apellyasiya şikayəti əsasında ləğv edilərək ilk iddia təmin edilib "Qlobal SF"MMC-nin əqdin etibarsız hesab edilməsi və s. tələbinə dair qarşılıqlı iddiasının rədd edilməsi qət edilmişdir.***

***Həmin qətnamə ilə eyni zamanda Bakı Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 14 fevral 2020- il tarixli qətnaməsi ilə (hakimlər: .A.Məmmədov, Ş.Ə.Məhərrəmova və E.Y.Şamayev) Məmmədova Zeynəb Eynulla qızının apellyasiya şikayəti təmin edilərək 61 200 (altmış bir min iki yüz ) manat məbləğində pul vəsaiti və iş üzrə ödənilmiş 45 manat dövlət rüsumu "Qlobal SF" MMC-dən tutularaq ona ödənilməsi qət edilmişdir.***

***Bakı Apellyasiya Məhkəməsi iddianın dərhal icra edilməsi üçün 22 sentyabr 2020-ci il tarixdə icra vərəqəsi vermişdir.***

***Bu günə qədər Yasamal rayon İcra Şöbəsinin icra məmuru Bayramov Bəhruz Əli oğlu tərəfindən qərarın icrası birmənalı olaraq həyata keçirilmir.***

***Mən Məmmədov Nağı Bayram oğlu bu barədə dəfələrlə aidiyyatı orqanlara,Yasamal rayon İcra Şöbəsinin rəisinə və prezidentə şikayət ərizəsi ilə müraciət etmişəm. Lakin icra məmuru Bayramov Bəhruz öz hərəkətsizliyini davam etdirir.***

***Mən Yasamal rayon icra şöbəsinin rəisi Cənab Pərviz Zəkəriyyəyevə bildirmişəm ki, icra sənədi qeyri şərtsiz icra olunmalıdır.***

***Mən şikayət ərizəsi ilə Azərbaycan Respublikasının Prezidenti Cənab İ.H.Əliyevə müraciət edərək məhkəmə qərarlarının icrası barədə Yasamal rayon İcra şöbəsinin İcra məmuru Bayramov Bəhruz tərəfindən vəzifə borcuna laqeyd münasibət bəsləməsini, icra intizamını, etik davranış qaydalarını pozmasını icranın hərəkətsiz saxlamasını və digər nöqsan və çatışmazlıqları barədə məlumat verdim və onların aradan qaldırılmasını tələb etdim.***

***Məhkəmə aktının qüvvəyə mindiyi vaxt: 19 avqust 2020-ci 11, İcra sənədinin verildiyi vaxt: 22 sentyabr 2020-ci 11. İcra sənədinin icraya yönəldilmə müddəti: dərhal göstərilməyinə baxmayaraq Yasamal rayon İcra şöbəsi qarşı tərəflə sövdələşməyə gedərək Qətnamənin icrasına laqeyd münasibət göstərməkdə davam edir.***

***Bununla yanaşı 03.02.2020-ci 11 tarlxdə Bakı şəhər Yasamal rayon Məhkəməsi 8(004)-44/2021 nömrəli Qərardad çıxarmışdır. Bu Qərardadm qərar hissəsində göstərilir ki, Bakı Apellyasiya məhkəməsinin 2(103)-486/2020 saylı, 14.02.2020-ci 11 tarixli icra sənədinin icrası ilə bağlı borclu "Qlobal-SF" MMC-nin inşa etdiyi 16 mərtəbəli (Ə. Əhmədov küçəsi) yaşayış binasının blok "D, E"-də yerləşən 545.60 kvm qeyri yaşayış sahəsinin üzərlnə həbs qoyulsun, qərardadın icrası Yasamal Rayon İcra Şöbəsinə həvalə edilsin.***

***"Qlobal-SF" MMC-nin direktoru İbrahimov Həmid Kazım oğlu məhkəmə prosesi getdiyi zaman rəhmətə getmişdir. İcra məmuru bunu bəhanə edərək qətnaməni lcra etmir və bildirir ki, yeni direktor yoxdur, o seçiləndən sonra icra olunar.***

***Lakin qətnamə icra olımmamış "Qlobal SF" MMC -nin yeni direktoru İbrahimov Nəriman Həsən oğlımun imzası ilə 17 may 2021-ci il tarixdə icra şöbəsinə rəsmi sənəd göndərərək bildirir ki, mənim tərəfımdən verilmiş apellyasiya şikayəti əsasında məhkəmə tərəfindən təmin edilmiş 68.000 min manat pul mənə və Məmmədova Zeynəb Eynulla qızı üçün təmin edilmiş 61 200 (altmış bir min iki yüz ) manat məbləğində pul vəsaiti etibarnamə əsasında Məmmədov Nağı Bayram oğluna ,yəni mənə ödənmişdir.***

***Bildirirəm ki, Məmmədova Zeynəb Eynulla qızı onu məhkəmədə təmsil etmək üçün mənə etibarnamə verib, həmin eribarnamənin əsli məhkəməyə təqdim olunub,işin içərisindədir. Mən bunu aydınlaşdırmaq üçün məhkəmədə olmuşam və etibarnamənin əslini işin içərisində görmüşəm. Məmmədova Zeynəb mənə bir etibarnamə verib, o da işin içərisindədir. Şirkət göndərən etibarnamə məhkəmədə olan etibarnamənin surətidir. Şirkət etibarnamənin surəti ilə mənə 129 290 manat verə bilməzdi.***

***Bunun araşdırmaya ehtiyacı var. Onlarda heç bir etibarnamə yoxdur. Sənəddə bildirilir ki, həmin pul mənə Binəqədi rayonu ərazisində yerləşən hansısa ofisdə verilmişdir . Mən heç bir ofis tanımıram, heç bir ofisdə olmamışam və mənə kimsə tərəfindən pul verilməyib.***

***Mən belə hesab edirəm ki, onların təqdim etdiyi etibarnamə surəti onlara mənim nümayəndəm Hidayət Hüseynli tərəfindən verilmişdir.***

***Nümayəndəm Hidayət Hüseynli məndən və həyat yoldaşım Zeynəbdən bizi icra şöbəsində təmsil etmək üçün etibarnamə istəmişdir. Həmin etibarnaməni verdik. Evdə etibarnaməni uşaqlar mənə oxuduqdan sonra bildik ki, Hidayətə pul almaq səlahiyyəti vermişik, dərhal notariusda etibarnaməni ləğv etdirdim.***

***Hidayət Hüseynli mənə Yasamal icra şöbəsinin icra məmuru Bəhruz Bayramovun adına 4 nüxsədən ibarət ərizə yazdırdı, öz adımdan və yoldaşımın adından imza etdirdi . Mən Azərbaycan dilində yazıb-oxuya bilmədiyim üçün həmin ərizəni mənə oxumasını xahiş etdim. Ərizədə "Qlobal SF" MMC tərəfindən bizə ödəniləcək 129 290 min manat məbləğində pulun ödənilmədiyi bildirilirdi. Sabahı günü zəng etdim Hidayətə bildirdim ki, ərizəni ver evdə uşaqlar mənə oxusun, o vermək istəmədi, məni evinə dəvət etdi. Onlara gəldim, onım kürəkəni ərizəni mənə oxudu, orada yazılmışdı ki, pul verilməyib. Sonra Hidayət həmin ərizələri hirslənib cırdı ki, sən mənə inanmırsan, səninlə işləmirəm. İndi o ərizələr haradan çıxdı, onu bilmək istəyirəm.***

***İndi şirkət tərəfindən icra şöbəsinə göndərilmiş etibarnamə surəti mənə Məmmədova Zeynəb tərəfindən məhkəmədə onu təmsil etmək üçün verilmiş etibarnamədir ki, həmin etibarnamədə Zeynəb mənə pul və əmlak almaq istisna olmaqla digər səlahiyyətlərini vermişdir. Ərizə isə Hidayət Hüseynli tərəfindən icra şöbəsinə vermək üçün mənə imzalatdığı ərizədir. Sadəcə olaraq ödənilməyib sözü ödənildi sözü ilə əvəzlənib. Bildirirəm ki, mənim nümayəndəm Hidayət Hüseynli şirkətlə əlbir olub onlara mənə imzalatdığı ərizələri və məhkəməyə verilmiş etibarnaməni verməklə mənim pulu aldığımı icra şöbəsinə bildirir.***

***Hidayətə söz vermişdim ki, ona 23 min pul verməli idim, o pulun 8 minini vermişəm, 15 min manat da verməliyəm. Onlardan pul alaraq Hidayət mənə məxsus sənədləri onlara vermişdir.***

***Bildirirəm ki, saxta sənədlər tərtib etməklə mənim başıma bu oyunları açan Hidayət Hüseynli, bu oyuna rəhbərlik edən "Qlobal SF" MMC -nin yeni direktoru İbrahimov Nəriman Həsən oğlu və onun havadarları İbrahimov Kazım Həmid oğlu, İbrahimov Tağı Hüseyn oğlu, İbrahiraov Hazim Hüseyn oğlu barədə tədbir görülsün,onlar barədə cinayət işi açılsm.Onların digər qardaşı dövlətə xəyanət edən İbrahimov Sahib Hüseyn oğludur ki, Prezidentə də şər atmışdı, hazırda həbsdədir.***

***Mən illərdir Pusiya Federasiyasında yaşayıram, oranın vətəndaşıyam. 3-4 ildir Azərbaycanda başıma gəlməyən qalmadı. Burdakı məmurlar tərəfindən aldadıldım.***

***"Qlobal-SF" MMC-nin direktoru İbrahimovHəmid Kazım oğlu, "Qlobal-SF" MMC-nin təsisçisi İbrahimov Kazım Həmid oğlu, İbrahimov Tağı tərəfindən aldadılaraq pulum ələ keçirildi. Bu azımş ki, Yasamal Rayon İcra Şöbəsinin məmurları da onlarla əlbir olub qətnaməni icra etmək istəmirlər. Mən Rusiyaya qayıda bilmədiyim üçün orada olan işlərim də dayandı.***

***Yuxarıda qeyd etdiklərimi nəzərə alaraq xahiş edirəm Azərbaycan Respublikasının müvafiq maddələrini nəzərə alaraq Bakı şəhəri Yasamal rayon icra şöbəsinin rəisi və icra məmurunun qanunsuzluqları barədə tədbir görülsün. Dövlət adından çıxarılmış məhkəmə qərarlarının icrası təmin edilsin.***

# Quruçayın sahilində yanğın

**Quruçay zəngin tarixə və qədim keçmişə malikdir. Bu çay min illərdir axır və min illərdir insanların sevincinə şərik çıxır. Və biz də uşaq olanda kəndimizdən, Böyük Bəhmənlidən keçib, Araz çayına tökülən Quruçayın sahilində o qədər ayaqyalın, başıaçıq ora-bura qaçmışıq, suyunda çimmişik, hətta sel gələndə onun necə daşdığının şahidi olmuşuq.**

Yaxşı yadımdadır ki, biz məktəbə gedəndə sel gələn zaman körpünün üstündən keçəndə qorxa-qorxa gedirdik. Çünki Quruçay daşanda onun üzünü görməyəydin.

Bizim uşaqlığımızdan 50 il vaxt keçib və bu 50 ildə çox şey dəyişib. Bir vaxtlar Quruçayın yaxınlığında mövcud olan meşəliklər, ağaclıqlar və digər yaşıllıqlar zaman-zaman azalıb. Belə ki, bu yerlərdə çoxlu sayda insanlar həyatyani sahə götürüblər və sağlıqlarına qismət. Orda ev tikiblər.

Amma yenə Quruçayın sahilində çoxlu ağaclar, qarğu və digər yaşıllıqlar mövcuddur. Bu yaxınlarda mənim uşaqlıq dostum və yaxın qohumum Zülfüqar Məmmədov mənə Quruçayın sahilində baş vermiş yanğınla bağlı üç video göndərib. Hər üç videoya baxanda adamın ürəyi para-para olur. Çünki dünyanın hər yerində təbiəti, ekologiyanı, çayları, göyləri, dənizləri insanlar qoruyur və sevirlər. Uşaqlıq dostum o videonu göndərəndən sonra yenidən mənə həyəcanlı halda zəng vurub dedi:

- Əmioğlu, əlimiz heç yerə çatmır, yenə ümid yerimiz sənsən. Kimlərsə gəlib o yaşıllıqların, qamışların, qarğuların arasına zibil tökürlər. Sonra da o zibilə od vurub yandırırlar. Artıq üçüncü dəfədir ki, həmin zibilliyi yandırırlar. Zibillər bir yana, ordakı ağaclar, yaşıllıqlar yanıb külə dönür. Hər dəfə də yanğını söndürmək üçün Fövqəladə Hallar Nazirliyinin Yanğından Mühafizə Xidmətinə zəng edirik. Onlar da çox sağ olsun ki, tez gəlirlər, yanğını söndürüb gedirlər. Amma onlar da deyirlər ki, bəs, niyə əlaqədar qurumlar bu yanğınlara şərait yaradan amilləri aradan qaldırmır?



Doğurdan da dostum və qardaşım Zülfüqar Məmmədovun həyəcanını başa düşmək olur. Çünki Quruçayın yaxınlığında onun özü, qardaşı Məmməd Məmmədov, əmioğlusu Kamal Məmmədov ev tikiblər. Bu yanğın zamanı dəfələrlə həmin evlər üçün böyük təhlükə yaranıb və onlar indi qorxurlar ki, evdə olmayanda, işə gedəndə kimlərsə gəlsin, həmin yerə zibil töksün, ona od vursun və yanğın da zibillikdən evlərə keçsin...

Məmməd Məmmədov deyir ki, biz tay nə gecə, nə də gündüz rahat ola bilmirik. Yatanda da səksəkə içində yatırıq. Bir də görürsən ki, tüstü qalxdı, yanğın ətrafı ağzına aldı. Biz də hay istəyirik öz gücümüzlə yanğını söndürək, amma buna qüvvəmiz çatmır. Məcbur olub yanğınsöndürənlərə zəng vururuq. Onlar da çox sağ olsun. Həmişə tez gəlirlər və yanğını söndürürlər. Belə getsə, Quruçayın sahilində təmiz yer qalmayacaq. Ancaq buralar zibil tullantısına çevriləcək. Bu yerlərə baxanda bizim ürəyimiz ağrıyır. Çünki uzun illərdir burda səliqə-səhmana həmişə fikir vermişik.

Məmməd dostumuzun fikrini Zülfüqar Məmmədov davam etdirir:

- Bilirsən, əmioğlu, bu barədə biz Füzuli rayonunun Böyük Bəhmənli kənd icra nümayəndəliyinə və bələdiyyəyə məlumat vermişik. Üstəlik də bir təklifimiz var ki, qoy burda Ekologiya və Təbii Sərvətlər Nazirliyi Quruçayın və sahilinin çirklənməsinin qarşısını almaq üçün maarifləndirici bir lövhə vursun. Məsələn, o lövhədə yazmaq olar: "Quruçayı qoruyun, təbiəti sevin!". Üstəlik də bizim bələdiyyə camaatı intizama dəvət etmək üçün belə bir addım ata bilər: "Kim çayı və sahilini çirkləndirəcəksə, məişət tullantısı atacaqsa, cərimə olunacaq!".

Təbii ki, biz yazar olaraq Quruçayın sahilində yaşayan insanların narahatlığını başa düşürük. Birincisi, bu narahatlıq çayın çirklənməsi və onun sahilinə məişət tullantısı atılması ilə bağlıdır. Ən dəhşətlisi isə odur ki, bu tullantını atan adamlar ona od vurur və nəticədə məişət tullantısı yanmaqla çayın sahilindəki yaşıllıqlar və ağaclar sıradan çıxır.

Əlbəttə, bu özü də ekologiyamıza, təbiətimizə və atmosferimizə vurulan çox böyük zərbədir. Hər bir insan özü yaşadığı ərazinin ekoloji gözəlliklərini - meşələrini, yaşıllıqlarını, çaylarını, göllərini və dənizini qorumalıdı. Çünki bu sadaladığımız gözəlliklər insanlar üçün yeni bir həyat, yeni bir nəfəs, yeni bir aura yaradır. Amma əfsuslar olsun ki, bir çoxları özlərinin rahatlığı üçün məişət tullantılarını hara gəldi atır, hətta bu bəs eləmir, üstəlik ona od da vurur.

Bu isə o deməkdir ki, Quruçayın sahilində yanğın baş verərsə, oranın flora və faunası yanır və eyni zamanda yaxınlıqda yaşayan insanların evlərinə təhlükə yaranır. Əgər onlar vaxtında bu yanğından xəbər tutmasalar, o yanğın tezliklə yaşayış binalarına keçə bilər. Az bir müddətdə Quruçayın sahilində üç dəfə yanğının baş verməsi ona dəlalət edir ki, həmin hadisəni törədənlər kənarda qalıb. Onlar nə inzibati, nə də cinayət məsuliyyətinə cəlb edilirlər.

Ümidvarıq ki, əlaqədar qurumlar Quruçay sahilində gələcəkdə baş verə biləcək yanğınların qarşısını almaq üçün qabaqlayıcı tədbirlər görəcək. Bu hadisəni kimlər bilərəkdən, yaxud bilməyərəkdən törədirlərsə, məsuliyyətdən yaxalarını kənara çəkə bilməyəcəklər. Çünki çayın sahilində yaşayan, adını çəkdiyimiz insanlar da tez bir vaxtda bu hadisənin qarşısının alınmasını və profilaktik tədbirlərin görülməsini arzulayır.

**Təbii ki, bu addım atılarsa, həm çayın çirklənməsinin, həm də onun sahilində zibil tullantılarının qalaqlanaraq yandırılmasının və eləcə də yaxınlıqdakı evlərin yanğından mühafizə edilməsinin qarşısı alınar. Hər halda, aidiyyatı qurumlar tez bir vaxtda bu addımı atmağa borcludurlar.**

**Faiq QİSMƏTOĞLU**

## *Bacı və qardaş koronavirusdan dünyasını dəyişdi*



*Tanıdığım bir ailə uzun müddət idi ki, övladının toyunu gözləyirdi. Eyni zamanda onun qohumları da bu toyda böyük həvəslə iştirak etməyi arzulayırdılar. Toy oldu, qohum-əqrəba gəldi, şadlıq etdilər və toydan iki gün sonra övladına toy edən xanım koronavirusa yoluxdu. Bir neçə gün müalicə olunsa da, səhhətində müsbət dönüş yaranmadı və həmin xanım dünyasını dəyişdi.*

*Toyda onun qardaşı çox imkanlı adamlardan biri olan insan da koronavirusa yoluxmuşdu. Həmin adamın sayı-hesabı bilinməyən biznes şəbəkəsi var idi. Amma öz səhhətinə çox laqeyd yanaşdı. Ağır xəstə ola-ola, əvvəl heç kimə bildirmədi, sonra evdə müalicə olundu, axırda da klinikaların birinə aparılsa da, o da dörd gündən sonra Allahın dərgahına qovuşdu.*

*Biz həmişə nəyəsə tələsirik. O cümlədən iki daşın arasında toy eləməyə də. Toy edirik edək, ancaq gərək pandemiyanın qaydalarını unutmayaq. Xəstə vəziyyətdə toya getməyək və getsək də, heç kimlə ünsiyyətdə olmayaq.*

*Görünür, həmin toyda da qohum-əqrəbanın arasında kimsə virusa yoluxub və ağır vəziyyətdə toyda iştirak edib. Bu da bir səhlənkarlıq və məsuliyyətsizlikdi. Qardaşlar, bacılar, toyda bir-birinizlə öpüşməyin, əllə görüşməyin. Bax, bu da öpüşməyin və əllə görüşməyin acı bir nəticəsi!*

## *Cərimə olunmaq istəmirsinizsə...*



*Bir çox insanlar pandemiya şəraitinə uyğunlaşmaq istəmirlər. Yəni onlar virusdan qorunmaq üçün maska taxmır və maska taxsa da, burnundan çənəsinə salır. Bəziləri də ara məsafəsinə əməl etmir, gigiyenik qaydaları pozur. Avqustun 27-də səhər saat 9-da Yeni Günəşlinin "D" massivindəki, daha doğrusu, "Ballı" marketin yanındakı avtobus dayanacağında polis əməkdaşları reyd keçirirdilər. Biz də həmin dayanacaqda bu hadisəni müşahidə etdik.*

*50 nömrəli avtobusda maskasını çənəsinə salan sərnişin polislər tərəfindən saxlanıldıqda, öz iradını bildirdi və dedi ki, sübut edin ki, mən maskanı çənəmə çəkmişəm.*

*Dayanacaqdakı insanlar və eləcə də avtobusdakı sərnişinlər görürdü ki, həqiqətən də saxlanılan şəxs maskadan tam istifadə etməyib. Hansı ki, əvvəllər iki dəfə də həmin şəxs polislər tərəfindən saxlanılıb və ona xəbərdarlıq ediblər.*

*Artıq üçüncü dəfə də həmin adamın yaş həddi nəzərə alınaraq ona xəbərdarlıq olundu. Digər dörd nəfər isə polis əməkdaşları tərəfindən tibbi maskadan düzgün istifadə etmədiyinə görə inzibati məsuliyyətə cəlb edilirdilər. Əgər cərimə olunmaq istəmirsinizsə, zəhmət də olsa, tibbi maskadan düzgün istifadə edin!*

*Emil FAİQOĞLU*

<u>*Eminquey*</u>



## Əfqan köçü təhlükəlidirmi, yoxsa yox?

***Əfqanıstan narko-dövlətdir.***

***Dünyada heroin bazarının 90 faizi bu ölkənin payına düşür.***

***Əfqanıstandan çıxan heroindən hər il 65 milyard dollar gəlir əldə olunur. Bunun sadəcə 3 milyardı Əfqanıstanda paylanır, qalanını isə bu işi təşkil edənlər aralarında bölüşürlər.***

***Əfqanıstanda fabrik yoxdur, iş-güc yoxdur, 1 milyon insan narkotik istehsal etməklə dolanır. Yazda 1 milyon adam xaş-xaş tarlalarına cumur, işləyir, gündəlim əmək haqqını alır, yenə 11 ay işsiz qalır və oturub yaz başını gözləyir.***

***ABŞ-dakı heroin bazarını Meksiya bəsləyir. Avropa və Asiya bazarını isə Əfqanıstan. Mallar "Balkan yolu" adlanan quru yolu ilə İran və Türkiyə vasitəsilə Avropaya daşınır.***

***Hava yolu ilə isə yalnız Kabil aeroportundan... Çünki ölkədə 60 hava limanı olsa da, onlardan yalnız dördündən beynəlxalq uçuşlar etmək mümkündür. Hal-hazırda yalnız Kabil aeroportu Əfqanıstanın nəzarətindədir. Qalanları Talibanın əlinə keçib.***

***Dəniz yolu ilə isə Pakistan vasitəsilə... Ümman dənizində gəmilərə yüklənir, Somali limanlarında boşaldılır, quru yolu ilə Ağ dəniz sahillərinə çıxarılır, Liviya, Tunis, Fas vasitəsilə yenə dəniz yolu ilə Avropaya çatdırılır.***

***Xaş-xaş Əfqanıstanda həmişə olub, amma şəxsən ABŞ tərəfindən heroin bazası halına gətirilib.***

***Necə?***

***2000-ci ildə Taliban fətva verərək xaş-xaş əkinini qadağan etdi.***

***2001-ci ildə isə ABŞ işğalı baş tutdu.***

***2002-ci ildən isə xaş-xaş əkini yenidən başladı, Əfqanıstan heroin dövlətinə çevrildi.***

***2001-ci ildə xaş-xaş əkilən ərazi 7000 hektar idisə, bugün 300 min hektara yaxınlaşıb.***

***2001-ci ildə ildə 150 ton narkotik istehsal olunurdusa, bugün 7000 ton narkotik istehsal olunur.***

***Bütün bunlarla yanaşı Əfqanıstanda "narkotiklə mübarizə nazirliyi" var, amma hökümətin, generalların, polis rəislərinin narkotikə bulaşdığını, bu çirkli pullarla altlarına sərvət yığdıqlarını bütün dünya bilir.***

***Əfqanıstanda hər on nəfərdən biri narkotik alüdəçisidir. Təxminən 4 milyon insan narkotikdən istifadə edir. Bunların 1 milyonu qadındır. Dünyada ən çox narkotik istifadəçisi olan ölkə Əfqanıstandır.***

***Kabildə heroin almaq dükandan çörək almaq qədər asandır. Bu ölkədə narkotikə başlama yaşı altıya qədər düşüb. Cahillik o qədər geniş vüsət alıb ki, süd əmən uşaqlarda boğulma baş verdikdə, öskürəyini kəsmək üçün tiryək verib uşaqları doğulan andan narkotikə alüdə edirlər.***

***İndi siz düşünün, əfqan köçü təhlükəlidirmi, yoxsa yox?***

# "Dərdnamə"nin poetik həqiqətləri



<u>*Nizaməddin Şəmsizadə*</u>
<u>*Əməkdar elm xadimi, professor*</u>

**Ədəbiyyatda "Şahnamə", "Qabusnamə", "Şikayətnamə", "Dəhnamə", "Növnamə", "Səfərnamə", "Müsibətnamə" və sair "namələr" mövcuddur.**

Üçüncü minilliyin birinci əsrinin - XXI əsrin şairi Şöhlət Əfşar da "Dərdnamə" (Bakı, "Nurlar" Nəşriyyatı - 2020) yazdı. Şöhlətin "Dərdnamə" poeması İkinci Qarabağ müharibəsindən - Vətən müharibəsindən düz bir il əvvəl 05 noyabr 2019-cu ildə yazılıb. Onda hələ 30 il işğalda qalan Qarabağ dərdimiz var idi. Və bu dərd özünün son həddinə çatmışdı. O zaman şair bu dərd kontekstində başqa dərdlərimizi də poetik şəkildə dilə gətirmişdir.

"Dərdnamə" poeması klassik ənənələrə uyğun olaraq "Minacat"la başlanır. Şair Allaha müraciət edərək ondan başladığı əsəri yazmaq üçün mənəvi güc, ilham istəyir. "Minacat" əsərə klassik forma, inam gətirir, müəllif Allah vergisi olan istedadına ilahi aləmdə istinad axtarır.

"Dərdnamə" Şöhlət Əfşarın müasiri, istedadlı şair, irfan əhli Barat Vüsala müraciət tərzində yazılıb. Bu tərz də klassik Azərbaycan ədəbiyyatının ənənələrindən gəlir. XIX əsrin böyük marifçisi Seyid Əzim Şirvani "Qafqaz müsəlmanlarına xitab" əsərini müasiri, milli mətbuatımızın banisi Həsən bəy Zərdabiyə müraciətlə yazmışdı:

***Ey Həsən bəy, müəllimi - dana!***
***Ey edən əhli - aləmi ehya!***
***Ey çatan aləmə səfa səndən,***
***Eyləyir Seyid iltica səndən -***
***Ki, bu məktub kim, xəyalımdır,***
***Əhli - Qafqazə ərzi - halımdır;..***

Belə bədii müraciətlər Azərbaycan ədəbi-tarixi prosesinin spesifik xüsusiyyətidir. Şöhlət Əfşar yazır.

*Mərhəba, Barat Vüsal, əziz dostum, qardaşım,*
*Ey mənim könüldaşım, sən, ey mənim dərddaşım!*
*Söylə, kefin necədir, necə keçir bu dövran?*
*Dövri-çərxi-fələklə, söylə, necədir aran?*
*Arzumdur, xoşbəxt yaşa, olmasın dərdin-sərin,*
*Al şəfəqə boyansın hər açılan səhərin.*
*İdrakınla yaz-yarat, yerə qoyma qələmi,*
*Sözə sözlə bəzək vur, nura qərq et aləmi...*
*...Zaman axır su kimi, - öz işində dəyirman,*
*Karvan bir an dayanmır, dolub-boşalır xırman.*
*Bil ki, zamanla qızıl, qiymətdə eyni, birdir,*
*Zamanı boşa versən, keçən ömür hədərdir.*
*Amma yığıb qızılı, sonra xərclərsən əlbət,*
*Zamanı bircə an da, saxlamaq olmaz fəqət!*
*Gecə, gündüz keçirsə, dursaq da, yol gedirik,*
*Yuxuda yatanda da məsafə qət edirik...*
*...Vaxtdır hər dərdə əlac, yalnız vaxt üçün acıq,*
*Çörəkdən, sudan da çox, biz zamana möhtacıq.*
*Barat, keçək mətləbə, vaxtı verməyək əldən,*
*Gəl, həsbi-hal eyləyək, macal olmaz əcəldən...*

Heca vəzninin ən ləngərli bölgüsündə ondördlüklə yazılan bu misralar klassik şeirimizi xatırladır: Öz səs düzümü və ahəngi ilə bəs şair nədən zinhara gəlib, dərd-səri nədir, qəlbən sevdiyi müstəqil Azərbaycanda onu pəjmürdə edən nədir, nə ilə barışa bilmir?! Bu sualları təkcə ziyalılar, vicdanlı qələm əhli yox, hər bir vətənpərvər, ləyaqətli "Vətən daşı" (Məmməd Araz) olan ölkə vətəndaşı özünə verə bilər. O zaman Şöhlət Əfşarın sərt və ədalətli misraları ona bədii-fəlsəfi cavab verəcək:

***Gəl, zənnə qapılma, güman etmə sən,***
***Sanma bu halətim divanəlikdir.***
***Bax dərdli könlümə, özün görərsən, -***
***Dəfinə gizlənmiş viranəlikdir.***

***Bu necə dünyadı, necə dövrandı?***
***Sən belə dünyadan nə gözlə, nə um?***
***İblisin odunda həqiqət yandı,***
***İnsanlıq yalana olubdu məhkum.***

"Dəfinə gizlənmiş viranəlik", sufiyanə deyimdir.

Son illər Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin hər sahədə apardığı islahatlar inanırıq ki, vətəndaş şairin həyəcanlarını azaldacaq. Daha şair:

***Həyat tərzi olub yalan, alçaqlıq,***
***Yaxşı inkar olur, pis alqış alır.***
***Millətin evini yıxdı yaltaqlıq,***
***Ədalət həyəcan təbili çalır.***

- deməyəcək, qalib Azərbaycanda gedən nəhəng quruculuq işlərini vəsf edəcəkdir.

Əgər şair öz zamanının dərdlərini görə bilmirsə, bu onun birinci məğlubiyyətidir. Əgər görüb deyə bilmirsə, cəsarət etmirsə, bu onun ikinci məğlubiyyətidir. Şöhlət Əfşar yüksək müşahidə qabiliyyətinə, ondan da yüksək şair-vətəndaş cəsarətinə malik şairdir.

Rusiyanın XIX əsrdə yaşamış, məşhur "Sovremennik" jurnalının redaktoru, rusların milli şairi Nekrasov deyirdi: "Sən şair olmaya bilərsən, fəqət, vətəndaş olmağa borclusan!".

Şöhlət Əfşar Nadir şah Əfşarın nəslinə



- türk Əfşarlar soyuna layiq şair və vətəndaşdır. Məhz belə soya malik şair cəsarətlə həqiqəti yaza bilər:

*"Dindar" var, on kərə həccə gedibdi,*
*Vicdan nə olduğun hələ bilməyir.*
*Möhürlə alnını yara edibdi,*
*İmana gəlməyir, dinə gəlməyir.*

*Qəflət yuxusundan oyanmır niyə?*
*Məzhəblər yanlışdan dönmür ki dönmür.*
*Cəhalət damara işləyib deyə,*
*Ədavət alovu sönmür ki sönmür!*

...Otuz il Avropa Şurası, ATƏT-in Minsk qrupu və sair xaçpərəstlər bizi işğal altında olan torpaqlarımıza müxtəlif bəhanələrlə yaxın buraxmırdılar. Şöhlət Əfşar illərdir davam edən bu ədalətsizliklərdən hiddətlənərək çarəni türklüyümüzdə, millətdə axtarır və çağırış edirdi:

***Cəsarət yox olub, qürur sınanda***
***Qorxu iradəni zəncirə vurar.***
***İnsanda məzlumluq qana hopanda***
***Haqsızın önündə əyilib, durar.***

***Kişilik, ərənlik, mətanət, fitrət,***
***Vətənə məhəbbət ruhda, candadır.***
***Milləti xilasa aparan qüdrət***
***Türkün damarında axan qandadır!***

Şöhlət Əfşarın "Dərdnamə" poeması, "Şuşanın nağılı", "Allah, bu Novruz da keçdi Şuşasız!", "Unutma Şuşanı, unutma, şair!", "Ölsün şair oğlun, ölsün, ey Vətən!", "Geleceyiz biz!" kimi şeirləri "Türkün damarında qanı" coşduraraq qəhrəman Azərbaycan əsgərini zəfərlərə doğru səslədi: Qarabağ şəhid qanı ilə suvarıldıqdan sonra zəfər çiçəkləri bitirdi.

***Vətənin əsgəri yararlanmasa,***
***Vətənin yarası sağalan deyil***

- bu da müasir şair Ələmdar Quluzadənin səsidir.

Şöhlət Əfşarın poemasında, şeirlərində və şübhəsiz ki, şair şəxsiyyətində türk əslindən gələn yüksək qürur hissi var. Şöhlət Əfşar bu qürurla yazır:

***Kimlər nə yazsa da, onun heç biri***
***Bizim dastanların sirrini verməz.***
***Ərəbin məhəbbət əfsanələri,***
***"Abbas və Gülgəz"in yerini verməz!***

"Dərdnamə" poemasını Şöhlət Əfşarın öz soyunun - türkün şəninə yazılmış əsər kimi də oxumaq olar:

***Ey Türk xalqı, üfürsən, dünyada tufan olar,***
***Təpiklə döysən yerə zərbindən yer yarılar!***
***Azərbaycan! Ulu Türk! Qalx ayağa, cihad et,***
***Haqq yolunda qılınc çal, Qarabağı azad et!***

Bu çağırış böyük bədii-fəlsəfi məzmun daşıyır, şairin müqəddəs niyyətini və vətəndaş mövqeyini əks etdirir.

Və yaxud:

***Özünə gəl, Ulu Türk! Yalnız nicat səndədir,***
***Yadlara bel bağlama, hər qüdrət özündədir!***
***Dönsən əgər özünə, dünya Türkün olacaq,***
***Turanın al bayrağı göylərə ucalacaq!***

Türkün tarixinə, onun qüdrətinə belə möhkəm inam Şöhlət Əfşarın öz soykökünə məhəbbətindən və sədaqətindən irəli gəlir. Türklər qəhrəman, azad ruhlu, demokratik düşüncəyə malik millətdir. Türk üzərində qan tökdüyü torpağı heç kimə verməz. "Ey Türk xalqı, üfürsən, dünyada tufan olar", "Təpiklə döysən yerə zərbindən yer yarılar", "Özünə gəl, Ulu Türk! Yalnız nicat səndədir", "Dönsən əgər özünə, dünya Türkün olacaq" kimi epitet və çağırışlar Şöhlətin şeirlərinə xüsusi milli kolorit verir və təsirsiz qalmır. Bu şeirləri oxuyan hər bir Azərbaycan gənci öz türk mənsubiyyəti ilə yüksək qürur duyur. Ümumiyyətlə, bu poema və şeirlər oxucuya milli qürur hissi aşılayır.

Şöhlət Əfşarın Türkiyə türkcəsində qələmə aldığı "Geleceyiz biz" adlı şeiri bütün türk dünyasında türkçülük himni kimi səslənir. Türkçülüyün son ülküsü - strategiyası Turançılıqdır: "Turanın al bayrağı göylərə ucalacaq" - təkcə bu misra Şöhlət Əfşarın təmiz niyyətindən, Türkün gələcəyinə inamından xəbər verir. Biz də əminik ki, vətəni Yerlə Göy arası olan Türklər bütün dünyanın sahibi olacaq, onların fatehliyi Yer kürəsinin fəthi ilə tamamlanacaq!

Murad Adci "Qıpçaq çölünün yovşanı" kitabında sübut etdi ki, xaçpərəstlərin sitayiş etdikləri ikonaları və fırlananda Günəş rəmzi olan xaçı Avropaya Türklər - Atilla aparmışdır. İndi avropalılar və ruslar həmin xaçı türklərə düşmən rəmzi kimi işlədir, bizim ikonalar qarşısında durub əleyhimizə dua edirlər... Şöhlət Əfşar düz deyir:

***"Dönsən əgər özünə, dünya Türkün olacaq,***
***Turanın al bayrağı göylərə ucalacaq!".***

Bəs belə bir şərəfli və qüdrətli millətin oğlu olduğun halda, nəyin dərdini çəkirsən, ey Şöhlət Əfşar!

Şöhlət Əfşarın "Dərdnamə" kitabında yer alan poeziyanın əbədi mövzusu olan məhəbbət şeirləri "Öyrət mənə", "Möhtacam sənə", "Varmı", "Sevəcəyəm də", "Xəbərin varmı", "Tələsmə belə" və s. şairin özünəməxsus ruhunun lirik bədii ifadəsidir. Belə şeirlər müasir oxucu qəlbinə mənəvi həzz verir, onun həyəcanını gözəlliyi duymağa səfərbər edir.

Şöhlət Əfşarın "Dərdnamə" əsəri öz bədii-tarixi missiyasını yerinə yetirdi, Qarabağ müzəffər ordumuzun qəhrəmanlığı sayəsində işğaldan azad olundu.

**Yeri gəlmişkən xüsusi qeyd edək ki, "Dərdnamə" kitabının sonunda Şöhlət Əfşarın tərtib edib verdiyi "Şərhlər və izahlar" müəllifin zəhmətli tədqiqatının və əməyinin məhsuludur. Bu şərhlər və izahlar kitaba ciddi elmi-nəzəri və filoloji sanbal bəxş edir.**

## *Kissincer: ABŞ Əfqanıstanda əsirə çevrilmişdi*



***ABŞ-ın Əfqanıstanda uğursuzluğu qarşıya qoyulan hədəflərə çatmaması ilə bağlıdır. Bu məlumat ABŞ-ın keçmiş dövlət katibi Henri Kissincerin məqaləsində yer alıb.***

***"Hərbi hədəflər o qədər yüksək idi ki, əlçatmaz olmuşdular. Onları öz arasında bağlaya bilməmək Amerikanı aydın olmayan horizontlarda konfliktlərin əsirinə çevirdi, daxili fikir ayrılığına və polemikaya gətirib çıxardı. Məhz bundan sonra taliblər Əfqanıstandan getdilər (Amerikanın 2001-ci il müdaxiləsindən sonra ölkəni tərk etmələri), biz əsas hədəflərimiz və strateji baxışımızı itirdik.***

***2010-cu ildə xəbərdarlıq etmişdim ki, belə uzanan müdaxilələr cihad prinsipini dəstəkləməyən əksər əfqanların dəstəyini itirmək təhdidi yaradır", - deyə o bildirib.***

## *Ukrayna türk helikopterləri üçün qurğular düzəldəcək*



***Ukraynanın FED Xarkov Maşınqayırma Zavodu Türkiyə istehsalı olan ATAK-II hücum helikopteri üçün qurğular tədarük edəcək.***

***Müvafiq müqavilə "İDEF-2021" müdafiə sərgisi zamanı imzalanıb.***

***FED İdarə Heyətinin sədri Viktor Popov şirkətin uçuş idarəetmə sistemi və hidravlik sistem üçün qurğular istehsal edəcəyini qeyd edib. Yeni sistemlərin hazırlanması və çatdırılması bir il çəkəcək.***

***MEHRİBAN***




*Faiq QİSMƏTOĞLU*
faiqqismetoglu@box.az


# Pasiyentə xəstə kimi yox, gəlir mənbəyi kimi baxırlar

***Bu gün dünyada çox qəribə bir vəziyyət yaranıb. Sanki dünyanı idarə edən qüvvələr milyardlar əldə etmək üçün insanların üzərində sınaq keçirirlər. Çünki dünyanı idarə edən bu gözəgörünməz insanlar milyardlarla adama insan kimi yox, qarışqa kimi baxırlar. Qəribə də olsa, onların ürəyindən Allahlıq keçir. Təsəvvür edirlər ki, onlar Allahdır və nə istəsə eləyə bilər.***

***Bu gün həm dünyada, həm də ölkəmizdə səhiyyə sahəsində yaranmış boşluq və özbaşınalıq milyonlarla insanın başında çatlayır. Yəni, oliqarx həkimlərin və onların havadarları hesabına hər cür dərmanlar istehsal edilir və əhali arasında kütləvi surətdə satılır. Bu gün sanki özəl klinikalar və eləcə də dövlət xəstəxanaları bir-biri ilə "yarışa" girib. Bu "yarış" da ondan ibarətdir ki, hansı özəl klinika və xəstəxana daha çox pasiyentin öz əhatə dairəsinə alacaq.***

***Amma Sovet hökumətinin vaxtında belə deyildi. Çünki onda dərman mafiyası olsa da, indiki kimi qol-budaq atmamış və əhatə dairəsini genişləndirməmişdi. Hər hansı həkimin yanına gedirdin, səni müayinə və müalicə edirdi və elə pulun da çıxmırdı. Güc-bəla ilə həkimə pul verərdin. Onlar da qorxa-qorxa, ehtiyat edə-edə o pulu alardılar. Ancaq bu gün hansı özəl klinikaya və yaxud dövlət xəstəxanasına müalicə və müayinəyə gedəndə, pulun olmasa, səni qəbul etməyəcəklər.***

***Ən azından ona görə ki, əksər həkimlər pasiyentə xəstə kimi yox, gəlir mənbəyi kimi baxırlar. Daha doğrusu, el sözü ilə demiş olsaq, belələri xəstələrə, üzr istəyirik, yumurtlayan toyuq kimi baxırlar. Hər hansı həkimin yanına getdin, əgər bir xroniki xəstəliyin varsa, səndən əl çəkməyəcək, ən azından ayda 1-2 dəfə yanında olmağı tələb edəcək. Dediklərini eləməsən, səni qorxuzacaq və bildirək ki, ayda 1-2 dəfə gəlməsən, xəstəliyin ağır fəsadlar verəcək. Bəlkə bu deyilənlərdə müəyyən qədər həqiqət də var. Amma həqiqətdən çox onların maddi marağı və xəstəni təsir altında saxlamaq düşüncəsi özünü daha aydın göstərir.***

***Bizim yaxın qohumlardan biri psixoloji durumu ilə bağlı müalicə olunmaq üçün özəl klinikalardan birinə müraciət edir. Klinikanın həkimi onu yoxlayır, müayinə edir və sonra da resept yazıb yola salır. Deyir ki, 15 gündən sonra bir də gələrsən. 15 gün bundan əvvəl hansı ki həmin qohum bu həkimə 50 manat pul verib. 15 gündən sonra yenə 50 manat pul ödəyir. Sözümüzün canı odur ki, özəl klinikalar pulsuz heç kimi müalicə və müayinə etmir. Amma burda da bir qanun və sistem olmalıdır. Bir çox özəl klinikalarda 50 manat pul ödəyirsən, bir ay müddətində həkimin qəbuluna gedərkən tay pul vermirsən. Amma ikinci ay getsən, mütləq yenə bu 50 manatı ödəməlisən.***

***Bu gün respublikamızda səhiyyə sistemimizdə, xəstəxanalarda və özəl klinikalarda bir hərc-mərclik baş alıb gedir. Burda pasiyentlərin hüquqlarının qorunmasından danışmağa dəyməz. Ancaq bu xəstəxanalarda və özəl klinikalarda müalicədən çox xəstələrdən pul almaq haqqında fikirləşirlər. Hamı da yaxşı bilir ki, əksər özəl klinikalar, xəstəxanalar və həkimlər dərman firmaları ilə əlbirdir.***

***Dərman firmalarının nümayəndələri xəstəxanalara gedib həkimlərlə görüşür və öz təkliflərini edirlər. Tay baxan yoxdur ki, bu firmanın dərmanı keyfiyyətlidir, ya yox?! Çünki nə həkimi, nə də dərman firmasını xəstənin müalicəsi deyil, əldə etdiyi külli miqdarda pul düşündürür. Ümumiyyətlə, dünyada belə bir fikir var ki, həkimlərlə dərman firmaları əlbir olub pasiyentləri soymaqla məşğuldur.***

***Dünyanın ən böyük dərman firmalarında işləmiş Roland Dikkerman deyir: "Dərman şirkətləri üçün sağlam hər bir xəstə itirilmiş bir müştəridir. Bütün dərman şirkətlərinin fəlsəfəsi "Öldürməyin, amma qətiyyən sağaltmayın" şəklindədir. Xərçəng, təzyiq, şəkər, ürək, sümük kimi xəstəliklər şirkətlər üçün qızıl yumurtlayan toyuq kimidir. Dərman şirkətləri xərçəngə çarə-filan axtarmırlar. Hədəfləri insanları xərçənglə daha çox yaşadıb, pullarını sovurmaqdır. Dünyanın bunu bilməyə haqqı var!".***

***Görürsünüzmü, ən böyük dərman firmalarında işləyən mütəxəssis nə deyir və bu gün də həkimlərlə dərman firmalarının müştərək oyunları davam edir. Təbii ki, bizim ölkəmizdə fəaliyyət göstərən həkimlər və dərman firmaları da bu böyük oyunun oyunçularından biridir. Qoy olsunlar, amma adamı yandıran odur ki, bu böyük oyunun oyunçularının qurbanı milyonlarla insan olmaqla yanaşı, bir gün də o oyunu oynayan həkimlərin və dərman firmalarının doğmaları olacaq.***

***Hər bir həkim firmalarla əlbir olmağı sanki özünə peşə seçib. Kim firmalarla əlbir olur olsun. Ancaq gərək vicdanını da itirməsin. Onu da qeyd edək ki, ölkəmizdə kifayət qədər də vicdanlı və ədalətli həkimlərimiz var. Bax, o həkimlər heç vaxt haqqı ədalətə verən deyil.***

## Rusiya Sibirdə yeni meqapolislər salacaq



***Rusiya Federasiyası Baş nazirinin müavini Viktoriya Abramçenko müdafiə naziri Sergey Şoyqunun Sibirdə yeni şəhərlər salmaq təşəbbüsünü dəstəklədiyini bildirib.***

***RF müdafiə naziri Sergey Şoyqu avqust ayında Novosibirsk şəhərindəki Akademqorodokda elmi ictimaiyyətlə görüşündə Sibirdə 300 mindən 1 milyona qədər əhalisi olan üç böyük şəhərin salınmasını və onları xüsusi fəaliyyət sferasına (məsələn, energetika, ağac emalı və ya neft kimyası sənayesi və s.) yönəltməyi lazım bildiyini söyləyib. Vahid Rusiya partiyasının nümayəndələri ilə görüşdə Rusiya Prezidenti Vladimir Putin də hərbi nazirin səsləndirdiyi təklifi dəstəkləyərək, Sibirin inkişafı ilə bağlı təkliflərin hazırlanması və rəsmiləşdirilməsinin zəruriliyindən danışıb. "Sergey Kujugetoviçin təşəbbüslərini dəstəkləyirəm, Omsk bölgəsinə səfərimiz ərəfəsində onunla görüşdük və bu təşəbbüsləri müzakirə etdik. Bu, Sibirin potensialı nəzərə alınaraq Sovet dövründə əsası qoyulan inkişafın faktiki olaraq yenidən bərpasıdır. Bu klaster yanaşmasıdır, ayrı-ayrı klasterlərin - Sibir subyektləri ərazisində sənayenin, elmin və texnologiyanın inkişafıdır. Gənclər Sibirdə qalmalıdır", - Omskda iki günlük səfərdə olan Abramçenko deyib.***

***Baş nazirin müavini bildirib ki, gəncləri cəlb etmək üçün heç bir ekoloji problemin olmadığı, "müasir mənzillərin və insanların xoşbəxt yaşayıb-işləməkdən məmnun qalacağı şəraitin" olduğu rahat bir mühitə ehtiyac var. Onun sözlərinə görə, Anqara-Yenisey makrorayonunun inkişafı üçün ayrıca bir layihə və Cənubi Sibir ərazisinin inkişafı üçün isə başqa bir layihə mövcuddur.***

***MEHRİBAN***

# QƏHRƏMANLIQ UNUDULMUR




VAQİF YUSİFLİ


**İllər öncə-Sovet dönəmində- xalqımızın qürur duyduğu bir hadisə baş verir. Gürcüstanın Xobi rayonunda əsgəri xidmətdə olan azərbaycanlı gənc, 19 yaşlı Rahib Məmmədov misilsiz igidlik göstərəçrək 28 gürcü vətəndaşını qar uçqunlarından yaranan azğın selin pəncəsindən xilas edir, özü də həlak olur. O zaman Moskvanın "Zaman" televiziya proqramında bu gəncin igidliyindən söz açırlar.**

Bu hadisənin üstündən illər keçsə də, Rahibin qəhrəmanlığı unudulmadı. Nə doğulduğu Ağdamın Mahrızlı kəndində, nə ümumən Azərbaycanda, nə də Gürcüstanın Xobi rayonunun Çaladidi kəndində Rahibin qəhrəmanlığı yaddaşlardan sçilinmədi.

Mən də Rahib Məmmədovun qəhrəmanlığını dönə-dönə xatırlamışam. Əgər Rahib sağ qalsaydı, heç şübhəsiz, indi neçə yaşından asıflı olmayaraq bizims 44 günlük Zəfər müharibəmizdə iştirak edərdi.

Qəhrəmanlıq haqqında yüzlərlə, minlərlə şeirlər yazılıb, xalqının, vətəninin azadlığı uğrunda canlarını qurban verən qəhrəmanların igidliyi bədii əsərlərdə təcəssüm olunub. Mənims fikrimcə, türk şairi Nihavl Atsızın şeiri birinci sırada gedir:

*Qəhrəmanlıq nə yalnız*
*Bir yüksəliş deməkdir.*
*Nə də ulduzlar kimi*
*Parlayıb sönməməkdir.*

*Sızlarsa da könüllər*
*Şəhidlərin yasından,*
*Qoşa adım getməli*
*Onların arxasından.*

*Qəhrəmanlıq içərək*
*Acı ölüm tasından,*
*İrəliyə atılmaq*
*Və sonra dönməməkdir!*

Məncə, Rahib Məmmədovun da qəhrəmanlığı "irəliyə atılıb" insanları xilas etmək və bu yolda şəhid olmaqdı.

Şairə Tamaşa Xəyalinin "Ölməzliyə gedən yol" lirik-epik poeması da bu qəhrəmanlığın tərənnümünə həsr olunub. Sanki yox, həqiqətən belə bir fikir aşılanır ki, qəhrəmanlıq yalnız döyüşlərdə, səngərlərdə deyil, fövqəladə cəsarət tələb edən hadisələrdə də meydana çıxır.

Tamaşa xanım bu əsərin janrını lirik-epik poema kimi müəyyənləşdirib. Amma bu əsəri həm də nəzmlə yazılan müasir dastan da adlandırmaq olar. Yəni əsərdə cərəyan edən hadisələr və təsvir olunan obrazlar dastan poetikasına uyğun gəlir.

Əsərə ön sözü xalq şaviri Nəriman Həsənezadə, son sözü isə şair Ənvər Əhməd yazmıfşlar və hər iki yazıda poema haqqında səmimi yrək sözləri ifadə olunmuş , müəllifin bu poemada hansı bədii məziyyətləri ilə diqqəti cəlb etdiyini nəzərə çarpdırırlar. Nəriman müəllimin bu fikri ilə tam razılaşırıq: "Şair ölməzliyə gedən yolu göstərir. Bu yol-fədakarlıqdı,-deyir. Bu şərəfli yolun sonu əbədiyyətdi. Şair bütün bunları qəbul edir və əsər demək olar ki, bütünlükdə bu mənəvi paklığa həsr edilib". Elə əsərin proloqu da Yoldan başlanır, yəni həyatdakı yolların mahiyyəti, məqsədi açıqlanır: Dözüm yolu, Qalibiyyət yolu haqqında fikirlərlə qarşhılaşırıq:

***Dostum, heç ömründə eşitmisənmi***
***Söbylə, ölməzliyə aparavn yolu.***
***Bu yolda dəyanət, dözüm gərəkdir,***
***Bu yol əzab dolu, əziyyət dolu.***

***Bu yolu hər oğul, ər gedə bilməz,***
***Yarıda sarsılıb qayıdar geri.***
***Bu yolu hər igid, nər gedə bilməz,***
***Bu yol sevmir canın çox sevənləri.***

***Bu yol qazanılır qan bahasına,***
***Bu yolda qanını verəsən gərək.***
***Bu yol qazanılır can bahasına,***
***Bu yolda canını verəsən gərək.***

Poemanın qəhrəmanı Rahib də bu yolu öz qanı, canı bahasına sonadək gedir.

Əsərdə lirik və epik səhnələr birbirini əvəz edir, əslində, bunlar vəhdətdədir, yəni lirik səhnələr obrazların daxili hiss-həyəcanlarını necə ifadə edirsə, epik səhnələr də həmin lirik səhnələri tamamlayır.

Poema Rahibin ata və anası ilə, onların kimliyi ilə başlayır. Ağdamın Mahşrızlı kəndində yaşayan Gülmalı ilə Roza xoşbəxt bir ailə həyatına qədəm qoymuşlar. Onlar bəxtəvərdilər. "İki sevənin qovuşduğu gecə". "Nə qədər bəxtəvərdi İlahi, bu iki gənc!". Onların məhəbbəti həyətlərində ağac əkmə səhnəsində daha bariz görünür, əkdikləri ağaclara "məhəbbət, əhdüpeyman ağacı tək baxırlar". Bu məhəbbətdən isə Rahib doğulur. Bundan sonra Rahibin uşaqlıq, məktəb illəri, ilk gənclik dövrü təsvir olunur. Rahib əsl azərbaycanlı kimi böyüyür, Vətənini sevir.

***Oğul deyirəm sənə***
***Yarağı namus, qeyrət.***
***Qəlbində çağlayırdı***
***Vətəninə məhəbbət.***
***Oğul deyirəm sənə***
***İgid, qorxmaz, cürətli.***

Və bir gün o, əsgəri xidmətə çağırılır. Onun əsgər olmağa həvəsi necə başlavnır? O dövrü xatırlayırıq-Azərbaycanın igid oğulları-vətən müharibəsi qəhrəmanları,xüsusilə general Həzi Aslanov bizim hamımızın idealımız idi. Rahib də deyir: "Mənim idealımdır, General Həzi, ana! Çalışıb hər işimdə Bənzəyəcəyəm ona. Ən müqəddəs arzum da Elə tankçı olmaqdır". Amma əsgərlikdən əvvəl Rahib Ağdamda texnikumda oxuyur, qurtarandan sonra mexanik olacaqdı.

Əsgərlik həyatı başlayır. Müəllif Rahibin necə intizamlı, həyatsevər və romantik bir gənc olduğunu, tez-tez xəyallara daldığını, evlərinə-ata-anasına məktublar yazdığını təsvir edir. Lirik səhnələr epik səhnələri əvəz edir. Bu, hər bir gəncin əsgərlik zamanı keçirdiyi roeal həyatdır. Müəllif Rahibi Azərbaycan gəncliyinin bütün zamanlar üçün bir mücəssiməsi kimi təqdim edir. Onun məldum qəhrəmanlığını təsvir edən səhnədə də bu igid gəncxin insanları necə ölümdən xilas etdiyini bugünkü gəncliyüə bir örnək hesab edir. Nə idi onu azğın selin qarşısına atan? Əlbəttə, ilk növbədə, yüksək vətəndaşlıq hissi… Sonra gəncxliyə xas olan mərdanəlik. Sonra humanizm duyğusu, insansevərlik.

***Qalxan zaman yerindən***
***Rahibi axtardılar.***
***Gəzib harayladılar.***
***Bir qədər aralıda***
***Qumun, çınqılın üstə***
***Uzanıbdı gördülər.***
***"Rahib, qavrdaşıfm" deyib***
***Özlərini Rahibin***
***Üzərinə sərdilər.***
***Artıq həlak olmuşdu***
***Artıq yox idi Rahib.***
***Elə bil ki, xəyalda***
***Bir yuxu idi Rahib.***

Rahib Məmmədov öz ölümüylə Ölümə qalib gəlir. Poemada Rahibin anasının çəkdiyi iztirablar çox kövrək, həzin msisralarla verilir. Amma poemada belə kədərli notlar olsa da,əsər nikbin pafoslda yazılıb.

***Bir solmaz çiçək yatır,***
***Min arzu, dilək yatır.***
***Alovlu ürək yatır***
***Rahib yatan torpaqda.***

***Nə sönər, nə soyuyar,***
***Günəş nura boyayar***
***Neçə arzu uyukyar,***
***Rahib yatan torpaqda.***

Bəli, qəhrəmanlıq unudulmur… 44 günlük şanlı müharibəmiz göstərdi ki,Rahiblər tək deyil, onun varisləri Azərbaycxan qədərdir. Eşq olsun Rvahiblərə!.

# Aid olduğun evin divar yazısı

## Qora bişirən ayın pıçıltıları




Əbülfət MƏDƏTOĞLU


**Mənim inancıma görə həyatda elə an, elə məqam var ki, o təkcə bütün ömrünə bərabər olmur, həm də sənin doğum gününün kimi yaddaşına yazılır. Və bu yazı heç vaxt pozulmur, hətta o yazının üstünə şeh də düşsə, toz da qonsa, onu birdəfəlik silmək, cırıb atmaq, unutmaq mümkünsüzdü. Axı, ömrə yazılıb, ürəyə yazılıb!.. Hə, mən bu bir cümləlik fikrimdə nə yazacağımı, nə deyəcəyimi öncədən çatdırmaq niyyətində deyiləm. Amma sadəcə bir içimdən gələn pıçıltını yazımın əvvəlinə çıxartdım...**

Hər anı, hər dəqiqəsi olduğu kimi yadımdadı. Elə bil ki, kinoya baxıram. Fırlanır çarx gözümün önündə. Və mən də o fırlanan çarxla birlikdə dönürəm o günə, o ana. Gəlişini, ilk kəlməsini, hətta gözlərinin dibində gizlənib, oradan boylanan kədəri də görürəm... İlahi, o baxış, o kədər, o pıçıltı sanki qeybdən gəlirdi, qeybdən də görünürdü. Onu görməmək, onu duymamaq mümkünsüz idi. Mən nə qədər cəhd etdim, nə qədər görməmək, duymamaq istədim, mümkün olmadı. O anın özündə bir maqnit dalğası var idi. Yaxalamışdı məni, elə yerimdən tutmuşdu ki, tərpənə bilmirdim. Və bu günə qədər də maqnit dalğasının tutduğu yer mənə aid deyildi. Məndən qopub gedibdi. Elə məni də aparıbdı bəlkə də...

Hə, tarix elə bu yazının dünyaya gəldiyi günə təsadüf edir. Onda da avqust idi. Onda da qora bişirən öz işini görürdü. Və elə onda da mən başımı salıb aşağı kağız-qələmin ixtiyarına vermişdim özümü. Bilmirdim ki, bu kağız-qələm məni ona tərəf aparır, ona səmtləyir... Və mən də qələmin, kağızın ətəyindən tutub gedirəm. Əslində getmirəm ey. Mənə tərəf gəlir, onu qarşılamağa çıxıram... Və həmin an qarşılaşırıq, öncə baxışlarımız görüşür. Sonra... Bax, elə hər şey də o sonradan başlayır. Bu mənim doğum tarixinin yeni başlanğıcıdır. Soruşa bilərsiniz ki, nə baş verdi. Nədən dəyişdi doğum tarixi? Düzünü deyim ki, bu sualın cavabını hələ də tapa bilməmişəm. Ona görə də sizə heç nə deyə bilməyəcəm və məndən də yəqin ki, ağıllı bir cavab da ala bilməyəcəksiniz. Axı, insan niyə doğulduğunu özü bilmir və heç vaxt da bilməyəcək!

Sizi çox da maraqda qoymamaq, intizarda saxlamamaq üçün bircə anladığım bir gerçəyi, dərk etdiyim bir həqiqəti deyə bilərəm ki, həmin avqustda, həmin o qora bişirəndə mənim doğulmağım Allahın növbəti möcüzəsidi. Çünki dünyaya mənimlə birlikdə bir sevgi də gəlmişdi. O sevgi yeni şeirlərimin, yeni pıçıltılarımın, yeni duyğularımın ünvanı, bəlkə də elə özü idi. Əslində elə də var. Özü də bəlkəsiz, filansız!..

Bax, onda mən əlimi göyə açıb şükür duaları ilə Allaha və sənə təşəkkürümü çatdırdım. İndi o duaları da, o şükürləri də içində təkrarlaya-təkrarlaya yazıram:

***Göydən düşən üç almayla***
***Bitdi mənim nağıl ömrüm.***
***Ondan nə mənə pay düşdü -***
***Nə də sənə ağıl, ömrüm!***

***Bədahətən söz deyərdim,***
***Öz yükümü çox bəyəndim.***
***Mən dəvə yox, mən küyəndim -***
***Belə gəldi, axır ömrüm!***

***De, o kimdi şəkili daşda?***
***Demirəm ki, başdan başla.***
***Gülə-gülə, əli qaşda -***
***Daş üstündən baxır ömrüm...***

***O həsrətə bu tabıyla,***
***Haqqa, sənə, xitabıyla...***
***Neçə-neçə kitabıyla -***
***Yüngül gəldi, ağır ömrüm!***

Bəli, mən bütün yazılarımın, bütün xitablarımın və bütövlükdə ömrümün mənasını həmin o gündə, o anda tapdım və qibləmi də bir daha müəyyənləşdirdim. Elə bilməyin ki, həmin ana qədər asi idim. Yox, mən onda Allahın adi, sadə, iddiasız başıaşağı bir bəndəsi kimi yaşayırdım ömrümü. Məhz, həmin o doğum günümdən içimdən bir iddia boy verdi. Bu iddianın adı Məcnundan artıq Məcnunluq idi. Bugünə qədər də böyük Füzulidən min dəfələrlə üzr istəməklə, özümü Məcnundan böyük Məcnun sayıram. Düşünürəm ki, mənim sevgim, mənim səcdəm birmənalıdır, dəyişməzdir və onun hansı bucaq altında təqdim etməyimdən asılı olmayaraq, o, mənə aid olmaqla yanaşı, həm də təzədi, tərdi. Baxmayaraq ki, yazmışam:

***Təklik dəyirman daşıdır,***
***Üyüdür bildiyin kimi.***
***Ağrıyan dərdin başıdır -***
***Böyüdür, bildiyin kimi...***

***Dörd divar həm də çəpərdi,***
***Canda tükənən təpərdi.***
***İlahi, Aysperq dəbərdi -***
***Keyidir, bildiyin kimi...***

***Bir damla su da sızmayan,***
***Yarasını özü duzlayan.***
***Kədər ürəyin sızlayan***
***Neyidir, bildiyin kimi...***

Bəli, ürək kiməsə bir parsa ətdir, kiməsə yumruq boyda daşdır, kiməsə tez sınan şüşədi və kiməsə elə-belə heç nədi. Yəni, insan bədəninin bir əzasıdı. Amma ürək həm də bütöv bir dünyadı. Duyğuların, hisslərin, ağrıların, sevinclərin, kədərlərin, vüsalların, həsrətlərin, bir sözlə, insana aid olan hər şeyin həm bələyidi, həm beşiyidi, həm də elə özüdür ki, var. Deməli, ürək həm də Allahın sənə tikdiyi evdi. Sən də o evin həm özüsən, həm də müsafiri, sakini. Deməli, elə ürək həm də Sənsən!

Sən olan yer heç vaxt qaranlıq ola bilməz, darısqal ola bilməz, soyuq ola bilməz, ümidsiz ola bilməz, işıqsız ola bilməz! Bilirsən niyə? Ona görə ki, Sən olan yeri Allah sənə aid edib! Və Allahın aid etdiyi yerdə işıqsız, susuz, havasız olmur axı. Bax, bütün bu dediklərim, yazdıqlarım pafoslu da çıxa bilər, sərsəmlik kimi də görünə bilər, hətta bayağı da adlanmaq şansında da qorunmur. Amma kim nə deyir-desin, kim hansı qiyməti verir-versin, heç vecimə də deyil. Bilirsən niyə? Ona görə ki, səni Allah çıxartdı qarşıma. Sənə aid olan yeri Allah müəyyənləşdirdi. Və səni ömrümə Allah hopdurdu. Mən və bütün bəndələr Allah qarşısında həm acizik, həm də heç kimik. Ona görə də Allahın iradəsinə qarşı çıxmaq qeyri-mümkündür və mən bunu heç ağlıma da gətirmirəm. Çünki həyatımın bütün anları Allaha və Sənə aiddi!

Ona görə də mən nəyi nə vaxt yazmağı və necə yazmağı da heç kimdən soruşmuram. Çünki yazdıran da, pıçıldayan da Allah və Sənsən. Bax, elə indi yazdığım şeir də o pıçıltılardan biridir.

*Yenə təkliyimlə pıçıldaşıram,*
*Bir az dünənimdən, bir az bugündən.*
*Ağrı baltasını itiləyibdi -*
*Kəsib ümüdümə düşən düyündən...*

*Üst-üstə gəlməyən kipriklərimi,*
*Əyməyə çalışır nəm ağırlığı.*
*Ağırlıq barədə bildiklərimi -*
*Alt-üst eləyibdi qəm ağırlığı...*

*İçimdə-çölümdə külək at çapır,*
*Təklik qamçılayır zənnimcə onu...*
*Büdrəyən bəndəni, demək tez tapır -*
*Ölümdən tez gəlir adamın sonu...*

Bu pıçıltıların arxasında bir ömür dayanır. Əl barmaqlarının sayını keçmiş ömür. Yəqin o sayı sən də bilirsən. Allahın bildiyi sayı deyirəm!.. Yəqin bu pıçıltıların arxasında sonu görünən ömrün kimə aid olduğunu da gözündən qaçırmırsan. Çünki onu Allah da artıq bilir və bir də ömrün alt-üst olması təzə bir fikir deyil və təzə söz də sayılmaz. Amma qəmin bütün ağırlığı ilə vücuda hopması hər adamın ömrünə yazılan yazı deyil. Buna birmənalı inanıram. Ona görə ki, ömrü yazan yer üzündəki bütün insanları fərqli yaratdığı kimi onların yazısını da fərqli qələmlə, fərqli fikir və cizgilərlə yazır. Kimi insan ömrü yaşayır, adidən adi. Kimi Məcnun ömrü yaşayır, aşiqdən aşiq və yaxud dəlidən dəli. Kimi də yenidən doğulur öz sevgisi ilə. Elə mənim kimi! Deyəsən, çox təriflədim özümü, çox "mən-mən" dedim.

Bunu günaha yazma, günahdan sayma. Özündən razılıq hesab etmə. Bil ki, mən Allahın və Sənin nəzərlərinin altında olmaqla yanaşı, həm də sizdən aldığım impulsların işığında yazıram, danışıram...

Bu məqamda hansısa bir yanlışlıq baş versə, o, artıq mənim hisslərə tabe ola bilməməyim, onları idarəetmə gücümü itirməyimin sayəsində baş verə bilər. Axı mən də daşdan, dəmirdən deyiləm.

Və günahlarımı da bilərəkdən, düşünülmüş halda ortaya çıxması, məhz həmin o gücümün tükəndiyi, iradəmin zəiflədiyi, duyğularımın ipə-sapa yatmadığı anın nəticəsidir. Yenə təkrar edirəm ki, mən mələk doğulmamışam və bu dünyada günahsızların olub-olmadığını düşünmədən etiraf edirəm ki, günahlarım kifayət qədərdir. Onun cəzası da boynumun haqqıdır və həmin o günahlarım məni imtahan etdiyi məqamda təkrar əlini göyə açır və üzümü sənə tuturam:

***Həsrətin bütöv adını***
***Hecalara bölüb, demə.***
***Əbülfətin varlığını,***
***Gizli anıb, ölüb! - demə...***

***Gəlib dəmi, gücün çatsa,***
***Ovut qəmi! - gücün çatsa.***
***Bu həmdəmi, gücün çatsa -***
***Baxıb, çərxi çönüb, demə...***

***Həyatımda bir an olub,***
***Öz-özündən viran olub...***
***Sən hakim, ya tiran olub -***
***O, özünü gömüb, demə.***

***Bəxtə bəlli bir avqust var,***
***İndi ona yağıbdı qar.***
***Tumurcuqkən düşərsə bar -***
***Tay sonuna gəlib, demə.***

Bütün bu yazı boyu mən içimdə sanki ələk əliyirdim. Bunu ona görə xüsusi qeyd edirəm ki, həmişəkindən fərqli olaraq sözü seçməyə, fikri təqdim etməyə bütün gücümlə çalışırdım. Məqsədim, məramım da bu ildi ki, artıq sözə, artıq fikrə yol verməyim, yer ayırmayım. Kimsə həmin o artıq sözdən, yersiz fikirdən yapışıb haralarasa gedib çıxmasın. Məhz bu səbəbdən yazının üstündə nanə yarpağı kimi əsmək dərəcəsinə gəlib çıxmışdım. Hətta özüm-özümə bir az acıyırdım da. Özümün-özümə bir az yazığım da gəlirdi. Axı, heç kimə bəlli olmayan, heç kim üçün maraq doğurmayan, yenidən doğulmağımın, kağıza köçürməyimin nə mənası var? Amma yox, təkcə yazılanın yadigar olması, qalması baxımından yox, həm də yazılanın bir təbrik, bir xatırlatma, dünənə dönüş olmasıdır. Mən də məhz təbrik üçün, dünənə dönüş üçün yenidən həmin avqustdan 2021-ci ilin avqustuna gəlmək üçün düşüncələrimi sözə çevirdim və yazdım. Hər halda bu yazı ad günü təbriki kimi də oxuna bilər, xatirə kimi də!

**Bəli, yazının əvvəlində dedim ki, heç kim doğum gününü doğulacağı andan öncə bilmədiyi kimi, təkrar doğulacağını da bilmir. Allah nəsib etdi, mən təkrar doğulmağımın şahidi oldum, elə Sən də! Və ömrümdəki Fərəh, Sevinc, Kədər, Ümid, Həsrət, bir sözlə, nə varsa hamısı həmin günlə bağlıdır. Və onların hamısı hər bir an mənimlə baş-başa, mənimlə birlikdədir. Mən də onlarla. Elə yəqin ki, Sən də!..**

***P.S.*** **Yazını "19 avqust" şeirimin bir bəndi ilə bitirirəm. Həmin şeir "...ancaq O" kitabındandır.**

*Kiminsə diqqətin qoy çəkməsin heç,*
*Mənim taleyimə vurulan möhür!*
*Əbədi sevgimdi - doğulsa da gec -*
*19 avqustdan boylanan şeir...*

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

№ 77 (2258) 28 avqust 2021-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Erməni təxribatları və bu təxribatlarda məqsəd

**Son günlərin hadisələri birmənalı şəkildə göstərir ki, Ermənistan hələ də özünün məğlubiyyəti ilə barışmayıb və hələ də köhnə xəyallarla, nimdaş təfəkkürlə yaşayır. Belə ki, ard-ardına, özü də müxtəlif istiqamətlərdən atəşkəsi pozmaq, təxribatlar törətmək kimi vərdişindən əl çəkməyən düşmən son günlər Şuşanı, Kəlbəcəri, Füzulini, Qazağın, Gədəbəyin kəndlərini atəşkəsə tutması bir daha göstərir ki, 10 noyabrda imzalanmış üçtərəfli bəyanat ermənilər üçün adi kağız parçasıdı. Hansı ki, bu bəyanatın altında onların hər zaman güvəndiyi, Rusiyanın, xüsusilə onun prezidentinin imzası var. Bu da, yəni, ermənilərin bu "cəsarəti" də adamı düşünməyə məcbur edir...**

Bu düşünmənin iki nüansı var. Onlardan biri ermənilərin atdıqları addımın hansı məqsədə hesablanmasıdı. Yəni, yenidən müharibəni başlamaq, yoxsa Azərbaycanı bu vasitə ilə imzalanacaq sülh sənədi ilə güzəştə məcbur etmək.

Və yaxud da Rusiyanı və digər Minsk qrupu olan dövlətlərin, xüsusilə Fransanın mövqeyində özləri üçün dəyişikliyə nail olub Azərbaycanı müəyyən qədər sıxışdırıb öz haqqından geri oturtmaq.

Həmin düşündürücü ikinci nüans isə imzalanmış üçtərəfli bəyanata Rusiyanın özünün münasibətini dəyişməsidir. Belə ki, erməni diasporu və Rusiyadakı ermənipərəst güclərin təzyiqi ilə Putinin geri addım atması kimi bir nüans da ortaya çıxa bilir. Bütün bu söylədiklərimizin fonunda təbii ki, reallıqlar var. Bu reallaqların ən birincisi ondan ibarətdir ki, faktiki olaraq bu gün də Rusiya Ermənistanı silahlandırmaqda onun dağılıb çökmüş ordusunu yenidən qurmaqda çox fəal iştirak edir.

Bu fikirləri dilə gətirərkən biz Rusiya Müdafiə Nazirliyi Şayqonun açıqlamasını, eləcə də Dumanın təmsilçilərinin mətbuatda yer alan sözlərini nəzərdə tuturuq. Yəni, Rusiya rəsmiləri ya birbaşa, ya da dolayısı ilə Ermənistanın yanında olduqlarını hər zaman vurğulayırlar. Bu da tam haqlı olaraq bizdə belə bir fikir yaradır ki, erməni təxribatlarının damarında "rus barmağı" da var. Əks halda Ermənistan bu cür təxribatlara, özdə davamlı şəkildə əl atmaz.

Beynəlxalq medianın gündəmində yer alan Azərbaycan və Ermənistan münasibətləri hər gün daha çox ədalət prizmasından işıqlandırılır. Bunun da ən böyük səbəbi Azərbaycan prezidentinin qətiyyətli addımları, onun yürütdüyü uğurlu, xarici siyasətdir. Ölkə başçısı həm Azərbaycanın daxilində, həm də onun hüdudlarından kənarda səsləndirdiyi bütün fikirlərində birmənalı şəkildə vurğulayır ki, "Biz uzun illər işğal altında olan torpaqlarımızı geri almışıq, öz sərhədlərimizi bərpa etmişik. Azərbaycan xalqı öz əzəli torpaqlarına, soydaşlarımızın öz ev-eşiklərinə qayıtmaq hüququnu bərpa etmişik".

Deməli bu da onu göstərir ki, artıq dünya bütün siyasi oyunlara baxmayaraq, Azərbaycanın haqq işini qəbul etməyə başlayıb. Burada mənə görə bir önəmli məqam da var. Bu da Azərbaycanın böyük zəfəri və böyük qələbəsidir.



44 günlük müharibədə qazanılan həmin tarixi qələbə dünyaya dövlətimizin gücünü də, iradəsini də, əzmini də sübut etdi. Belə bir anda zaman-zaman işlədilən kəlamlardan biri yada düşür.

O da deyildiyi kimi, qalibin mühakimə edilməməsidir! Biz isə təkcə qalib yox, həm də öz torpaqlarımızı işğaldan azad etmiş xalqıq!

Azərbaycan Prezidenti özünün son çıxışlarının birində birmənalı şəkildə vurğuladı ki, ***"Bu gün bizim yeganə məqsədimiz işğaldan azad edilmiş bölgələrin - Şərqi Zəngəzurun, Qarabağın bərpası, insanların buraya, bu zonaya qaytarılması üçün yeni imkanların yaradılmasıdır".*** Bu fikirləri cari ilin avqust ayının 16-da Kəlbəcər və Laçına etdiyi səfər zamanı vurğulayan Ali Baş Komandanımız onu da bəyan etdi ki, ***"Bu müharibə, eyni zamanda, erməni mifologiyasının da tamamilə məhv olması deməkdir. Çünki uzun illər ərzində, 30 il ərzində ermənilər dırnaqarası "hərbi qələbə" ilə öyünürdülər.***

***Ermənilər bir neçə mif uydurmuşdular ki, onların ordusu "yenilməz ordu"dur və onların ordusu bu torpaqları əbədi işğal altında saxlaya bilər. Biz bu mifi dağıtdıq".*** Həqiqətən də Azərbaycan ordusu döyüş meydanında göstərdiyi qəhrəmanlıqla təkcə erməniləri yox, hətta ölümün özünü də diz çökdürdü. Bu ordu ölümə də qalib gələrək Şuşanı Kəlbəcəri, Ağdamı, Füzulini, Cəbrayılı, Zəngilanı, Qubadlını, Laçını, Ağoğlanı (Hadrud) öz əsl sahiblərinə qaytardı. Bax, elə Azərbaycanın düşmənləri də bu qələbəni ona görə həzm edə bilmədilər və bilmirlər də! Dünyada gedən prosesləri izlədikcə bir daha məlum olur ki, öz çirkin əməllərindən əl çəkməyən düşmən və ona dəstək verənlər müharibəni yenidən alovlandırmaq və guya bununla danışıqlara, ümumilikdə, prosesə təsir etmək niyyətindədirlər.

Onların düşüncəsinə görə, Azərbaycanın bu gün azad edilmiş torpaqlarda həyata keçirtdiyi quruculuq işləri guya qanunsuz aparılır.

Xüsusilə, Şuşanın bərpası, burada bir-birinin ardınca tədbirlərin keçirilməsi düşmənin yuxusuna haram qatır. Əslində bunun belə olacağı gözlənilən idi.

Çünki 30 ilə yaxın talanıb maddi-mənəvi sərvətləri daşınan torpaqların əldən çıxması, öz sahibinə qayıtması, harama, talana həris olan ermənilər üçün ağır zərbədi. Heç nəyin sahibi olmayan Ermənistan məhz 30 il Azərbaycanın sərvətini daşımaqla xeyli kapital əldə edibdir.

İndi isə Qarabağ ərazisindəki narkotik plantasiyaları, həmçinin daşınan sərvətlər onların göz dağına çevrilib. İstər dünya mediasında, istər Azərbaycan mətbuatında hər gün vurğulanan narkotik vasitələrin dövriyyəsi, istehsalı, həmin vasitələrin yeni növlərinin ortaya çıxmasını araşdırarkən daha çox Dağlıq Qarabağ ərazisi diqqəti çəkir.

Deməli, birmənalı şəkildə bəlli olur ki, məhz bu ərazilərdə ermənilər narkotik vasitələrin becərilməsi və satışı ilə məşğul olurbdur. Ona görə də həmin plantasiyaların məhvi əllərindən çıxması erməni işbazlarına, narkobaronlarına, silah tacirlərinə ən ağır zərbədir.

Hətta bugünlərdə peyk vasitəsi ilə çəkilmiş görüntülərdən aydın olub ki, bu ərazilərdə Rusiya sülhməramlılarının olmasına baxmayaraq, İranın, Ermənistanın yük maşınları açıq şəkildə əraziyə daxil olur və müxtəlif yüklərin daşınmasını reallaşdırırlar.

Bax, bütün bunlar göstərir ki, sərhədlərin qorunması, son dəqiqləşmələrin aparılması, yəni, Sovet dönəminin bəlli sərhəd zolağının bərpa edilməsi ermənilərin ürəyincə deyil.

Ona görə də düşmən hər bir məqamdan, hər bir vasitədən istifadə etməklə sərhəd məsələsinin də "ömrünü" uzatmağa çalışır. Və düşünür ki, bu prosesin uzanması Rusiya sülhməramlılarının da bölgədə qalma ömrünü uzadacaq. Lakin bu bir yalnış düşüncədir.

Azərbaycan Prezidenti hər zaman vurğulayıb ki, biz öz sərhədlərimizin tam bərpasına nail olacağıq və işğaldan azad edilmiş bütün torpaqlarımızda yeni infrastrukturlar yaradacağıq.

**Üstəlik, Ali Baş Komandanımızın vurğuladığı kimi, Azərbaycanın Naxçıvanla olan bağlılıq məsələsini də həll edəcək. Bunun üçün dəmir yolunun, avtomobil yolunun tam təhlükəsiz fəaliyyəti gerçəkləşdiriləcək, Zəngəzur problemi öz həllini tapacaqdır.**

**Əbülfət MƏDƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Qisas qiyamətə qalmadı



***Əli MAHMUD***

## *Şuşada nəyim qaldı*

*Şuşanın işğalından sonra hər dəfə çoxları məndən soruşurdu: "Şuşada nəyin qaldı?" Bu şeir onlara cavab kimi yazıldı.*

**Qəbrimə nişanə seçdiyim
Mamırlı bir daş.
Gözümə tökmək üçün qoruduğum
Bir ovuc torpaq.
Ürəyimdə bişib,
Dodaqlarımı göynədən
Bircə damla yaş.**

***

**Təsəlli üçün qardaş məzarına
Qoyacağım Xarı bülbül gülü.
Hər səhər şehinə bələndiyim,
Üzümü sürtdüyüm,
Gözümə dürtdüyüm
Maralotu sünbülü.**

***

**Sehrli nağılların
Dərin quyularına enən
Qırxpilləkan yolu.
Qoxlanmamış bənövşələrə
Keşik çəkən
Qaratikan kolu.
Yandırılmış kəndimin
Qırxqızın, Kirsin yamaclarına
Səpələnmiş külü.
Göyərməyən, qurumayan
Qan gölü.**

***

**Şəhid anamın
Mirzəhəsən qəbiristanlığındakı
Məni intiqama çağıran
Çat-çat olmuş qəbri.
Şuşasız, Göyçəsiz,
Laçınsız, Kəlbəcərsiz millətimin
Tükənib daşmayan səbri.**

***

**Xan qızı Natəvanın,
Vaqifin, Zakirin,
Üzeyirin, Bülbülün
Xanın, Cabbarın
Güllələnmiş məzarları, heykəlləri.
Yanıb kösövə dönmüş
Neçə kamanın, tarın
Mizraba həsrət qalmış telləri.**

***

**Mərmər döşənmiş ağ küçələr,
Ulduzları yerə tökülmüş gecələr,
Min illərin sehri, sirri
Yığılmış mücrülər.**

***

**Sıldırımlı
Yolların üstündə,
Ənvər Paşanın, Soltan bəyin
Qolları üstündə
Qalmış şəhidlərin.
Gözümün yaşını qurutmuş,
Qəmim, qəhərim.
Təbrizin qənşərində,
Bakının beş addımlığında,
Əsir düşən şəhərim.**

***

**İllərdən bəri
Yağı tapdağında qalan,
Daş armudları baltalanan,
Qalaları sökülən,
İmarətləri talanan,
Ürəyi oğul həsrətiylə
Bişən şəhərim.**

***

**Yağı əlinə düşməmək üçün
Özünü qayadan atan,
Qız şəlalələrim.
Qan çilənmiş Cıdır düzündə
Qan rəngli lalələrim.**

***

**Dan yeri qanla
Sökülən şəhərim,
Kişnərtisi Qızıl qayada
Boğulub itən,
Tövləsi, axuru sökülmüş,
Nalları tökülmüş,
Yüyəni, yəhəri yandırılmış,
İnadı sındırılmış,
Kəhərim.**

***

**Ərimgəldi dikdirində
Gecikən, ləngiyən,
Nəfəsi təngiyən kişilərin
Yolunu gözləyən yarları.
"Vağzalı" havası.
Yarımçıq qalan,
Əlləri qanla xınalanan,
Gözəllərin ruhları.**

***

**Yan ağaclarından
Asılan rəngli yumaqları
Asılı qalmış hanalar.
İlmələri həvələnməmiş,
Çeşni göyərçinləri
Havalanmamış
Xalçalar, xalılar.**

***

**Bağrıqan dağının üstündə
Bir əlçim yağışsız buludum.
"Segah"ı yarımçıq kəsilmiş,
Tankların tırtırı altında
Nalə çəkə-çəkə əzilmiş
Kamanım, udum.
Ürəyim, gərəyim,
Duzum, çörəyim.**

***

**Gözlərimə güllə,
Qəlbimə barıt,
Qurşun doldurmuşam ki,
Xilas edim yağılardan Vətəni.
Qurtarım yaxamı töhmətdən,
Övladlarım, nəvələrim,
Qınamasınlar məni.**

***

**Ömrümün bu qürub çağında,
Bundan sonra yurdsuz
Yaşamaq hədər.
Yaşasam da,
Tapmaram itirdiyim qədər.**

## *Bu Vətən oğulsuz imiş*

**Yağı yolumu bağladı,
Dağlar üstümə ağladı.
Şuşa sinəmi dağladı,
Bu Vətən oğulsuz imiş.**

**Düşməni yıxa bilmədim,
Sınaqdan çıxa bilmədim.
Vətən, bağışlama məni,
Gözünə baxa bilmədim,
Bu Vətən oğulsuz imiş.**

**Hamı susur, hamı dözür,
Guya ki dərd bizi üzür,
Axtarma, kişi nə gəzir?!
Bu Vətən oğulsuz imiş.**

**Mən əvəzi anam şəhid,
Körpəm şəhid, sonam şəhid,
Analar doğmasa igid,
Bu Vətən oğulsuz imiş.**

**Vətənim əldən getdisə,
Adım, ünvanım itdisə,
Namərd murada yetdisə,
Bu Vətən oğulsuz imiş.**

**Yerlə-yeksan bürcüm, qalam,
Doğram-doğram çinar balam,
"Gəldim, dar ağacı, salam!"
Bu Vətən oğulsuz imiş.**

**Hər kişi əsgər deyilsə,
Sinəmiz səngər deyilsə,
Kinimiz xəncər deyilsə,
Bu Vətən oğulsuz imiş.**

**Döyüş əmri ləngidisə,
Dərdin közü səngidisə,
Nəfəsimiz təngidisə,
Bu Vətən oğulsuz imiş.**

**Tökülürük yarpaq-yarpaq,
Tapdaq altda ana torpaq.
Gündə min yol ölür qorxaq,
Bu Vətən oğulsuz imiş.**

**Daşım-divarım sökülüb,
Atımın nalı tökülüb,
Dözümün beli bükülüb,
Bu Vətən oğulsuz imiş.**

**Qəbirlər mamırda itib,
Bulaqlar çamurda itib,
Yolumda güllələr bitib,
Bu Vətən oğulsuz imiş.**

**Yatmışıq, ayılmaq olmur,
Səbrin kasaları dolmur,
Bu Vətən saçını yolmur,
Bu Vətən oğulsuz imiş.**

**1991-ci il**

## *Hələ*

**Səbrim dəyirman daşıdı,
Çarx da gözümün yaşıdı,
Üyünən xalq yaddaşıdı-
Üyüdən düşməndi hələ.**

**Yağı tapdağında Vətən,
Sinəmdə daşdı döyünən.
Hələ ki, yaddı öyünən,
Hər saatım dönüb ilə.**

**Xırmanda döyülmür dənim,
Vəlim öküzümə qənim,
Kim olacaq dərd çəkənim?!
Papağı da verdim yelə.**

**Hanamdakı arğac tovsuz,
İp boyaqsız, kirkid -sovsuz.
Ovçuyam- oxsuz, tilovsuz,
Səhrada Məcnunam, lələ!**

**Söyüdüm bar ağacımdı,
Dözümüm dar ağacımdı.
Sınan vüqar ağacımdı,
Sona qonmur Qanlı gölə.**

**Dağ dərdimin dili laldı,
Xəstəyəm, armudum kaldı.
Zəhərə dedilər baldı,
Qismətim yazılıb belə.**

**Badalaq yolumda hazır,
Qandalım qolumda hazır,
Hər gələn bir fərman yazır,
Hələ ki, köləyəm, kölə.**

**Elim yoxdu, obam yoxdu,
Tüstüm göydə, sobam yoxdu.
Ta dözməyə tabım yoxdu,
Evimdən atıblar çölə.**

**Gözlərimə dağ basılıb,
Əlimlə qəbrim qazılıb.
Kəndirim göydən asılıb,
Əriyirəm gilə-gilə.**

**Kəsilən son nəfəsimdi,
Haqqa çatmayan səsimdi.
Nə çəkmişəm, bu bəsimdi,
Daha tutammarsız dilə.**

**1992-ci il**

## *Şuşa*

**Şuşa şəhərlərin baş şəhəriydi,
Yaddaş şəhəriydi, daş şəhəriydi.**

**Günəş güllərini öpə bilirdi,
Ulduzlar göz yaşı səpə bilirdi.**

**Sıxmışdı qoynuna qala qolları,
Bağlıydı yağıya, yada yolları.**

**Həya pərisiydi dumanı, çəni,
Nuhun gəmisiydi, dağlar-yelkəni.**

**O Qızıl qayası səs qülləsiydi,
Allahın sonuncu möcüzəsiydi.**

**Güllərdən çələnglər hörmək olurdu,
Ordan Yer kürəsini görmək olurdu.**

**Bağrıqan bir müdrik qoca kimiydi,
Bu şəhər Allahdan uca kimiydi.**

**Zirvələr qoynunda nazlı bir sona,
Dağlar laylasını çalırdı ona.**

**Zakirlə Natəvan sözüydü onun,
Nərgizli çəmənlər üzüydü onun.**

**Üzeyir nəfəsi daşlarda idi,
Koroğlu nərəsi daşlarda idi.**

**Xanın zəngulәsi göylər üzündə,
Atlar kişnəyirdi Cıdır düzündə.**

**Şuşa şəhərlərin baş şəhəriydi,
Yaddaş şəhəriydi, daş şəhəriydi.**

## *Xalı düşüb yadıma*

**Xalı düşüb yadıma,
Anam toxuyan xalı.
Çəmən kimi bəzəkli,
Ətir qoxuyan xalı.**

**Gülüm, öz əllərinlə,
Mənə bir xalı toxu.
Əriclərin üstündə
Göyçə mahalı toxu,
Qazax mahalı toxu.**

**Çeşnisini deyərəm:
Qılınc, qalxan, tar, qaval,
"Cəngi", "Yallı", oyunu,
Bir də qayada qartal,**

**Arğacları keç, toxu,
Rənglərini seç, toxu.
Elə toxu ki, onun
Hər ilməsi qərinə,
Dönəsi əsr olsun.
Elə etmə çeşnidə
Keçmişdən kəsir olsun.**

**Xalı düşüb yadıma,
Anam toxuyan xalı.
Çəmən kimi bəzəkli,
Ətir qoxuyan xalı.**

**Anam düşüb yadıma,
Gözümə getməz yuxu.
Ay anamın gəlini,
Mənə bir xalı toxu,
Mənə bir xalı toxu.**

## *Qisas qiyamətə qalmaz*

**Salam, doğma Şuşam,
səhərin gəlib,
Müzəffər ordumla
zəfərim gəlib.
Gülür torpağın da, gülür daşın da.
güclü sərkərdənin,
güclü ordunun,
dəmir yumruqları
yağı başında.
Düşmənin ordusu
puç oldu getdi,
xalqına vəd verdi,
suç oldu getdi.
Xalqımın çörəyi
gözündən gəldi.
İndi yalaqlardan
yal axtarırlar,
millətin başına şal axtarırlar.
Makrondan bir qutu
qurdlu makaron,
eşşəyə, qatıra nal axtarırlar.
Bu millət goreşən
südünü içib,
əyninə satqınlıq
donunu biçib.
Erməni bəşərə
lәkədir, ləkə,
Kimə qışqırsalar
Atsınlar tikə.**

**2021-ci il**

# "Mənə bircə gilə göz yaşı bəsdi"

**Bu kitabın adı məni özünə çəkdi və düşündüm ki, əslində sevdiyinin, doğmanın göz yaşını arzulamaq, bu həqiqi sevgiyə yaraşmayan, uyğun gəlməyən bir istəkdi. Axı, göz yaşı ağrının, acının, həsrətin, ayrılığın ifadəsidi. Amma bir az da dərindən düşünəndə gördüm ki, xoşbəxtliyin də göz yaşı var, vüsalın da göz yaşı var, qovuşmağın da, şadlığın da. Hətta bir-biri ilə uzun ayrılıqdan sonra rəsmiləşən nigahın imzalanma mərasimindəki bir gilə göz yaşı da... başqa bir həyatdı!**

Bax, mən bu yozumların içərisində şair qardaşım, dostum, necə deyərlər, öz saflığı ilə ürəyimə hakim olan İbrahim Yusifoğlunun kitabına verdiyi adın aurasında xəyala daldım. Axı, İbrahim Yusifoğlu sözə qarşı son dərəcə diqqətli və tələbkardır. Deməli o, seçdiyi adı min gözəlin, min çiçəyin adından, min sözün içərisindən seçib. Və elə kitabın üz qabığındakı bir bənd şeirə fikir versək, yanılmadığımıza əmin olarıq.

*Göylərin üzünü aldı buludlar,*
*Hələ qəlb ürpədən külək də əsdi.*
*Mənim səndə xeyli əmanətim var,*
*Qaytarsan...bir gilə göz yaşı bəsdi.*

Doğurdan da, kimsə kiməsə varlığını, duyğularını, ürəyini, həyatını, bütövlükdə özünü bağışlayırsa və o da bütün bunları alıb dolaba, kitab rəfinə, nəbilim, soyuducuya, əl damına, hara gəldi yığıb unudursa, ya da əhəmiyyət vermirsə, bunun məşəqqəti bilirsiz nə boydadı?

Heç düşünmüsünüzmü, təmənnasız, ilahi bir istəklə verdiklərinizin yeri qarşılayanın, alanın ürəyindən başqa hər yerdə var! - Amma aid olduğu, daha doğrusu olacağı ürəkdə yoxdu. İstədiyin anda onu sənə hansısa bir küncdən, bucaqdan tapıb heç bir təəssüf hissi keçirmədən qaytarırsa... Onda bütün onların əvəzinə bir gilə göz yaşı qaytarsa yaxşı olar. Elə deyilmi? Hə, mən deyəsən bir az çox dərinlərə baş vurdum. Ola bilsin bu da yaşadıqlarımın diqtəsidi.

Amma bütün hallarda məni duyanlar, tanıyanlar bilir ki, sevgidən müqəddəs bir də sevgidi. Çünki onun yeri iki ürəyin birləşdiyi nöqtədir. Bu nöqtəni də birləşdirən Allahdı. İbrahim Yusifoğlunun mənə qardaş avtoqrafı ilə bağışladığı bu yeni kitabının mətbəə qoxusunu canına çəkə-çəkə şeirlərini də ruhuma hopdurdum. Çünki bu şeirlər şairin seçmələri idi.

O, kitabın adına uyğun olaraq elə bir toplu yaradıb ki, onları oxumadan vərəqi çevirmək olmur. Yeri gəlmişkən xatırladım ki, kitabın ön sözünün müəllifi akademik İsa Həbibbəyli, redaktoru filologiya üzrə fəlsəfə doktoru Fidan Nizaməddin qızıdır. 5 bölümdən ibarət olan bu kitabda həyatımızın bütün sahələrinə poetik baxış yer alıb. Şair seçmələrinin ruhunun, ovqatının diktəsi kimi misralayıb.

Onun "Arxamca boylanan baxışların var" şeiri və yaxud "Sən məni bənzətmə yaz yağışına" şeiri, həmçinin "İlahi, bu qızı bəd gözdən gözlə" və digər şeirləri çəmənlikdən tək-tək dərilən çiçəklərin bənzəridi. İbrahim Yusifoğlu yazır ki:

*Otları saralmış, gülləri solmuş*
*Çəməndən, qırovdan, çəndən qorxuram.*




*İnadkar gözəltək gözləri dolmuş,*
*Buluddan qorxmuram, səndən qorxuram.*

*Qorxuram, adına söz gələr axı,*
*Sözlər sinəm üstə köz ələr axı.*
*Közlər ürəyimi pöşələr axı -*
*Qəlbinə çökəcək nəmdən qorxuram.*

*Gözlərin göy kimi durudur, duru,*
*Yanağın nəm deyil, qurudu, quru.*
*Üzündə günəşin nurudu, nuru -*
*Saçına ələnən dəndən qorxuram.*

*Bədnəzər dikilər boyuna sənin,*
*Qoymaram salalar oyuna səni.*
*Özüm gələcəyəm toyuna sənin -*
*Yoluma ələnən qəmdən qorxuram.*

**Əvvəldə vurğuladığım kimi, İbrahim Yusifoğlunun bu kitabında həyatımızın bütün məqamları, olayları şeirləşib. Bəli, onun 44 günlük müharibəmizin Böyük Zəfəri, Qarabağ kədərimiz və sevincimiz, Naxçıvan, Şərur gözəllikləri və özəllikləri, təbiətimiz, coğrafiyamız və bütövlükdə yurd sevgimiz, xüsusilə, Araz nisgilimizlə bağlı şeirləri birnəfəsə oxunur. Çünki bu şeirlərin, bu mövzuların hamısı duyğusal, Vətən övladlarının hər birinin içindən gəlib keçir. Deməli, İbrahim Yusifoğlu bizim iç dünyamızı yazır. Uğurlar olsun, qardaşım, kitabına da, özünə də!**

**Əbülfət MƏDƏTOĞLU**

---

**Füzuli uğrunda döyüşlərdə canını Vətənə qurban verən, Beyləqan rayonundan olan Şəhidimiz Aslan Salmanovun xalqımıza əmanət qoyduğu oğlu Süleymanın 7 yaşı tamam olur. Bu münasibətlə xalqımız adından Süleymanı təbrik edir, ona uzun ömür, can sağlığı arzulayırıq! Atası - Şəhidimiz Aslan Salmanovun adına layiq övlad olsun...**




---

## *"Məni həvəskar kimi qəbul edənlərin peşəkarlığına şübhə edirəm"*

*Həmsöhbətimiz yazar, filoloq Aygün Yaşardı.*

**- İmzana baxıram. Gah Aygün Cəfərova, gah da Aygün Yaşar. Bu özünü tapmamaqdır?**

- Bir imza seçməklə insan özünü tapsa idi, nə var idi ki, yaşamağa? Əslində, ilk ədəbiyyatşünaslığa aid kitabım Cəfərova imzamla çap olundu. AYB vəsiqəmdə təxəllüsüm "Yaşar" yazıldı. Sonralar da elmi məqalələrimi Cəfərova, bədii-publisistik mətnlərimi "Yaşar"la təqdim etdim. Bu müsahibədən sonra bilməyənlər də biləcək ki, Aygün Cəfərova elə Aygün Yaşarın özüdür.

### *Tərcüməyə görə aldığım pulları xərcləməyə əlim gəlmir*

**-Rus dilindən tərcümələr edirsən. Peşəkar məşğul olmağı çıxsaq adətən tərcümə ilə ya öz yaradıcılığı alınmayanda, tükənəndə və ya maddi duruma görə məşğul olurlar. Səndə hansı səbəbdəndir?**

- Tərcümə ilə məşğul olmağıma dediyiniz səbəblərin heç biri uyğun deyil. Hər şey həvəsdən başladı. Səhv etmirəmsə ilk dəfə rus şairi Nadejda Painadan "Su qayıt!" şeirini tərcümə etmişdim. Tərcüməni qənaətbəxş hesab edən ustad şairimiz İbrahim İlyaslı sonralar qazax, qırğız, başqırd,türk yazarlarının da mətnləri üzərində uyğulamalar etməyimə imkan yaratdı. Tərcüməyə görə aldığım pulları xərcləməyə də əlim gəlmir. O qədər şirin, dəyərli idi ki. Həm bir az da türk xalqlarından tərcümə edəndə pul götürdüyümə görə utanc hissi də olurdu. Amma müəlliflər deyirlər, haqqındır, təşəkkürümüzün simvolik formasıdır etdiyimiz ödəniş. Belə. Çox zövq alıram tərcümə işindən.

Bu mövzuda çox danışa bilərəm, ürəyim doludur. Amma əlahəzrət vaxt deyir, "bəsdir"

**- Zəhmətkeşliyinin şahidiyəm. Bilənləri çıxsaq, səni peşəkardan daha çox həvəskar kimi qəbul edənlər daha çoxdur.**

- Bilməyən nə bilsin bizi,
Bilənlərə salam olsun!

"Zəhmətkeş" ən gözəl epitet olar adımın qarşısında. Təşəkkür edirəm. Rəsmi olaraq ixtisasıma uyğun işləmirəm deyə həvəskar kimi qəbul olunuram yəqin.

Axı formal sənədlər və titullar daha çox sirayətedicidir. Məni həvəskar kimi qəbul edənlərin peşəkarlığına şübhə edirəm.

**-Bu yaxınlarda Nəsimi ilə bağlı səhv etmirəmsə kitabın dərc olunub.**

- Bəli, "Nəsimi ili" çərçivəsində "Nəsimi yaradıcılığında folklor izləri" adlı monoqrafiyam İbrahim İlyaslının təşəbbüsü, dəyərli millət vəkilimiz Qənirə xanım Paşayevanın xeyir-duası, maddi-mənəvi dəstəyi və



əziz Arzu xanım Bağırovanın səyi ilə çap olundu. "Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu" İB və "Regional Hüquqi və İqtisadi Maarifləndirmə" İB-nin dəstəyi ilə nəşr olundu.

**-Sumqayıtda yaşayırsan. Sumqayıtda ədəbi mühit hansı vəziyyətdədir?**

- Sumqayıtın ədəbi mühitində tanınmış və sevilən, şəxsən özümə doğma bildiyim imzalardan ikisi sizin ünvanda yaşayır. Digər yazarların içində öz müəllimlərim də var: Rafiq Yusifoğlu və Əşrəf Veysəlli. AYB- yə üzvlüyümə zəmanəti də məhz o iki müəllimimdən almağım mənim üçün qürurvericidir. Sumqayıt bölməsi üzrə AYB sədrimiz Gülnarə Xanım da hər zaman məni yaradıcılığa həvəsləndirir, xoş münasibət göstərir, yazılarımı oxuyur, bəyənir.Təşəkkür edirəm buna görə. Çox sağ olsunlar.

Ədəbi mühitimizə daha da fəal olmağı arzu edirəm. Ölkədə baş verənlərə hər bir ziyalı öz münasibətini bildirməlidir. Azərbaycan reallığı bunu tələb edir. Mövzu genişdir. Ədəbi mühiti imkan daxilində izləmək mənə maraqlıdır və oxuyuram.

**-Halbuki Bakı ilə Sumqayıt arasında elə də məsafə yoxdur. Kifayət qədər uğurlu sumqayıtlı imzalar region yox, elə Bakı, respublika imzası kimi qəbul edilir, tanınır.**

- Bəli, indi sosial şəbəkələr, redaksiyaların əlçatan olması artıq region bölgüsünü aradan götürür.

**-Adətən bir çoxlarının təşəkkürnamələr, diplomlarla təskinlik tapdığını görürük. Hər hansı tərcüməyə görə verilən təşəkkürnamələr özünü aldatmaq deyil?**

- Birinə kiçik görünə bilən uğur, sevinc başqasına həqiqətən də ciddi uğur kimi hiss edilə bilər. Buna görə kimisə qınamaq, aşağılamaq, gülmək gəlmir içimdən. Hər insanın öz hədəfləri var. Təşəkkürnamə ilə sevinənin hədəfi ora qədərdir demək ki. Bol-bol təşəkkürnamələr alsınlar, sevinsinlər. Nə deyə bilərik ki.

**-Yeni hansı yaradıcılıq nümunələri üzərində çalışırsan?**

- Üzərində işlədiyim bir neçə mövzu var. Yəni ədəbiyyatşünaslığa dair tədqiqat işlərini nəzərdə tuturam. Bədii mətnlərimi məqsədli və planlı yazmamışam. Onlar bəzən dərs keçdiyim vaxt fasilədə belə "məcburən" yazdırıblar özlərini. Xoş gəlirlərmi, xoşa gəlirlərmi, oxucular bilər. Xoşa gəlirlərsə, üzümü ağ edirlər. Məmnunluq duyuram bundan.

**-Sırf öz bədii yaradıcılığından ibarət kitab dərc etdirmək fikrin yoxdur?**

-Var. Hətta hazırdır. 44 günlük zəfər savaşımız başlamazdan öncə çapa verəcəkdim hətta. Müharibəyə görə saxladım. Və indi bir kitabım olacaqsa, o müharibədən keçmiş bir kitab olacaq yəqin ki.

**Söhbətləşdi:**
**Emin Piri**

---

## *Evliliyi "kabus" kimi dəyərləndirən PEŞMAN MƏŞHURLAR*



**Ulduzlar hər zaman şəxsi həyatları ilə maraq dairəsində olublar. Kimi sevgilisi, kimi əri ilə gündəmə gəlib. Kiminin isə boşanma xəbəri günlərlə müzakirə olunub. Elələri də var ki, evlənməyini, ailə qurmasını peşmançılıq kimi yaşayır.**

Adalet.az xəbər verir ki, Türkiyəli müğənni Sərdar Ortaçın evlilik həyatı tam bir kabus olub.Bunu şəxsi həyatı ilə bağlı açıqlama verən müğənninin sözlərindən də anlamaq olar:

"Hamımız səhv edə bilərik. Evlənməklə səhv etdim. İndi isə evdə qaldım, bu vaxtdan sonra da evlənməyə niyyətim yoxdur".

Müğənni bir müddət əvvəl açıqlamasında nəinki, gündəlik azad həyatını, hətta cibinə girən hər qəpiyini keçmiş həyat yoldaşı Xloe Luqnana verdiyini bildirmişdi. İndi isə keçmiş xanımını "üzünü şeytan görsün" deyə xatırlayır

Aparıcı Nastya İvleeva reper əri Elcemdən ayrılıb.Nastya məlumatı özü yayıb. O bildirib ki, boşanmağa hazırlaşır.

Uzun müddətdir bunla bağlı dedi-qodular yayılıb. Məsələ haqda bir müddət danışmayan Nastya "İndi də onu çox sevirəm.

O, hər zaman mənim üçün doğma olacaq. Amma bu artıq bacı-qardaş sevgisinə bənzəyir" deyə, açıqlamasında qeyd edib.

Bizim şou biznes nümayəndələrindən isə ən qalmaqallı evlilik, eyni zamanda ən "bezdirici" boşanma Əməkdar artist Lalə Məmmədova həyat yoldaşı İlham bəylə 2013-cü ilin yayında boşanarkən olmuşdu.

Cütlüyün bu evlilikdən Nərgiz və Çinarə adlı iki qızı olsa da onlar bu prosesdə bir-birinə qarşı amansız ittihamlar irəli sürdülər.

Müğənni Kərim Abbasov 2008-ci ilin yanvarında prodüser Təranə Səmədova ilə evlənib. Cütlük daha sonra qalmaqallı şəkildə boşanıb.keçib arasında da "belə evliliyi lənətləmək" kimi bir fikir keçib.

Hər iki tərəf üçün evlilik kabus kimi görünsədə, Kərim ikinci dəfə Təranə adlı başqa xanımla evlənib. Təranə isə o vaxtdan sonra ailə qurmayıb.

**Belə: Hər ucadan gülənə - gülümsəyənə, hər imkanı, maddi vəziyyəti yüksək səviyyədə olana həsəd aparmaq doğru deyil.. Kimin nə dərdi, nə problemi olduğunu bilmək mümkün deyil...**

**Əntiqə Rəşid**

---

## *Kaan Yıldırım eks eşqi Hadisə haqqında görün nələr dedi: "Qarşı tərəf..."*



***Ötən ildən türkiyəli müğənni Hadisə və aktyor Kaan Yıldırımın böyük sevgisi Türkiyə mətbuatında tez-tez manşet olurdu. Əvvəllər sevgilərini gizlədən cütlüyün birlikdəliyi məşhur ifaçının sevgilisinin qaldığı evə girərkən fotolarının yayımlanmasından sonra açkar oldu.***

***Adalet.az xəbər verir ki, Hadisə və Kaanın münasibəti ifaçının onun iti ilə foto paylaşmasından sonra ortaya çıxmışdı. Karantin günlərini birlikdə keçirən cütlük daha bir ipucunu isə Hadisə "Survivor" proqramına virtual qonaq olarkən vermişdi. Onun görüntülü danışdığı məkanın Kaanın evi olduğu məlum olmuşdu.***

***Bir il davam edən böyük eşq bu ilin iyun ayında sonlandı. Hadisə Kaandan ayrılan kimi yeni sevgilisi- Mehmet Dinçerlerlə poz verdi.***

***Türkiyə mediası üçün hələ də müəmmalı qalan bu ayrılığın açmasını ancaq hələ də sevgilisi olmaya Kaan verə bilər. Bu gün yaraşıqlı aktyora media nümayəndəli maraqlı sual ünvanladılar: Hadisə ilə ayrılıq səbəbi nədir-deyə. Görün eks sevgili necə bir açıqlama verdi:***

***"Qarşı tərəfin bir ilişkisi var. Mənim mövzulara girməyimheç uygun olmaz. Ayıb olur. Onun üçün sizin də anlayış göstərmənizi istəyirəm". deyə Kaan Yıldırım cavab verib.***

***Əntiqə Rəşid***

---

# "Payızın 44 anı"

**Bu gün uşaqdan böyüyə hər kəs böyük qürur hissi ilə 44 günlük müharibəmizin Zəfərindən danışır. Və bu Zəfərə gedən yolun şəhidlərini fəxarətlə anır. Azərbaycan insanı birmənalı şəkildə 44 rəqəmini özünə o qədər doğmalaşdırıb ki, həmin rəqəm dilə gətirilən kimi dərhal yada İkinci Qarabağ savaşı düşür.**

Təbii ki, bu savaşın qalibləri, iştirakçıları, qaziləri, şəhidləri hər zaman xalqın qəlbində yaşayacaqdır. Çünki onların haqq etdikləri bu ucalıq şəhid qanı ilə əldə olunub.

Bax, elə bu mənada savaşımızla bağlı, şəhidlərimizlə, qazilərimizlə əlaqəli yazılan hər söz, hər cümlə, çap olunan hər məqalə, hər kitab, lentə alınan hər bir kadr bizim 44 günlük müharibənin iştirakçılarına ehtiramımızın ifadəsidi. Yeri gəlmişkən deyim ki, Birinci Qarabağ savaşında olduğu kimi, ikinci savaşımızda da yazarlarımız, qələm adamlarımız, hər bir bölgənin qazisi, şəhidi barəsində materiallar hazırlayır, kitablar ortaya qoyurlar. Bu mənada "Payızın 44 anı" kitabı da diqqəti çəkir.




Barəsində oxucularımıza bilgi vermək istədiyim "Payızın 44 anı" kitabının müəllifləri Qafar Cəfərli və Xatirə Xatundur. Müəlliflər bu kitabı İkinci Qarabağ Müharibəsində şəhid olan lənkəranlıların əziz xatirəsinə həsr ediblər.

Kitab iş adamı Hüseyn Raqib oğlu Həsənzadənin maddi dəstəyi ilə arayaərsəyə gətirilibdi. Kitabın müəlliflərindən biri, yəni Qafar Cəfərli yazıçı-publisist kimi öz imzasını oxucularımıza çoxdan tanıdıb. O, Xatirə Xatunla birlikdə ortaya gətirdikləri bu kitabı demək olar ki, Lənkəran ərazisində doğulub, buradan İkinci Qarabağ savaşına yollanmış bütün lənkəranlı şəhidlərin hər biri haqqında fotoları ilə birlikdə kövrək publisistik yazılar təqdim ediblər.

Bu yazılar həmin şəhidlərin döyüş yolu barəsində söz açır.

Oxucu materiallarla tanış olduqca bu igidlərin ruhu qarşısında baş əyir, bir anlıq sükuta dalmaqla öz ehtiramlarını ifadə edirlər. Bu kitabda hər iki müəllifdən başqa, Lənkəranın şəhidləri barəsində Əlisəfa Həsənovun, Ağamir Cavadın, Esmira İsmayılovanın da yazıları yer alıb. Bu da onu göstərir ki, kitabın həm müəllifləri öz həmkarlarının da haqqını nəzərə alaraq kitaba onların da yazılarını daxil ediblər.

**Bununla da Lənkəranın bütün şəhidlərinin barəsində oxuculara məlumat çatdırılıb. Ümumiyyətlə, kitabın tərtibatı, müqəddəs "Qurani-Kərim"dən sitatın verilməsi, Ulu Öndərimizin, həmçinin, Ali Baş Komandanımızın fikirlərinin təqdimatı və nəhayət, həmmüəlliflərin oxuculara müraciəti diqqətçəkəndir. Və ən vacibi də budur ki, bu kitab həmin şəhidlər üçün bir söz abidəsidi - həmişə göz önündə olacaq söz abidəsi!**

**Əbülfət MƏDƏTOĞLU**

---

Azərbaycan Respublikasının Torpaq Mülkiyyət Hüququna dair İbrahimov Sərdar Səttar oğlunun adına 01 noyabr 1998-ci ildə JN№487 Kod 60806018 verilmiş Torpaq aktı itdiyi üçün etibarsız sayılır.

***

Lerik rayon Piran kənd sakini Nəzərova Aynur Vəliməmməd qızına 25 iyul 2000-ci ildə 66 saylı qərarla torpağın mülkiyyətə verilməsinə dair dövlət aktı JN: 0028 kod 80318088 itdiyi üçün etibarsız sayılsın.

***

Lənkəran şəhər sakini Atluxanova Mirvari Adik qızına məxsus Girdəni kəndi ərazisində mülkiyyətə verilmiş torpaq sahəsinin plan və ölçsüsü texniki pasport (AA018291) reyestr nömrəsi 802013017779 itdiyi üçün etibarszı sayılsın.

***

Lənkəran rayonu Göyşaban kəndində Nəzərov Rəsul Həbib oğluna verilmiş torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (kod 80215018 JN 110) itdiyi üçün etibarsız sayılır.

Əbülfət Mədətoğlu **Səadət Abbasovaya** bacısı
**Nayibzadə Elnarə Cabbar qızının**
vaxtsız vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Hüsniyyə Əlizadə və Təranə Qaraşova **Püstə Qəniyevaya, Vüsalə Gözəlovaya, Dəyənat Gözəlova, Gülzar Gözəlovaya** əzizləri
**Cənnət Gözəlovun**
vaxtsız vəfatından kədərləndiklərini bildirir, yaxınlarına və doğmalarına dərin hüznlə başsağlığı verirlər.

Təsisçi və baş məsləhətçi: Aqil ABBAS

Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 120
Çapa imzalanmışdır: 27.08.2021